

## Dini turizm məkanı: "Diri Baba" türbəsi

5

# Bölgələrin inkişafında yeni mərhələ!

2


# Səs

№ 144 (6585) 13 avqust 2022-ci il. Qiymıəti 60 qəpik


*Azərbaycan Prezidentinin bölgələrə hər bir səfəri regionların inkişafına, vətəndaşların rifahına, firavan həyatın təminatına yönəlib. Dövlət başçısının İsmayıllıya, Qobustana, eləcə də Ağsuya səfəri regionların inkişafına növbəti töhfədir. Bu gün ölkəmizin regionlarda böyük infrastruktur layihələri həyata keçirilir, müasir yollar çəkilir, sosial obyektlər inşa edilir. Heç bir layihə təxirə salınmır.*



# Ərzaq təhlükəsizliyi: Sosial TƏMİNAT üçün mühüm FAKTOR!

*Bu gün hər bir vətəndaşın mənafeyi əsas tutulmaqla gerçəkləşdirilən aqrar islahatlar ölkə iqtisadiyyatında bazar münasibətlərinin qurulmasına, torpaq və əmlakın səmərəli istifadə edilməsinə, aqrar bölmənin sahə strukturunun təkmilləşdirilməsinə, sahibkarlığın formalaşması və inkişafına yönəlmişdir.*



4

## Zəngilana vüqarı kimi, çinarı da qaytarılır



8

## Xərçəng: bu qorxunc ölüm kabusundan necə qurtulmaq olar?



6

## Ermənistanda qaçaqaç: ermənilər ölkələrini belə tərk edir!



## Boşanan cütlüklərdə mal-mülk necə bölünür?

11



Yaşadığımız dövrlə valideynlərimizin yaşadığı dövr arasında ciddi fərqlər var. Keçmişdə münasibətlərin və evliliklərin sona çatması üçün müxtəlif səbəblər olduğu halda, bu gün tamamilə fərqli səbəblər ortaya çıxır.



## Elektron biznesə sıfırdan necə başlamaq olar?

13

## Xəbərdarlıq: Bu avtobuslar ölümə aparır, minməyin!





## Ürəyin 3 ən QƏDDAR DÜŞMƏNİ

16

*Tibbi statistika göstərir ki, bütün dünyada ürək-damar sistemi xəstəlikləri ölümün əsas səbəbidir. Belə vəziyyətdə ürək-damar sistemi xəstəliklərinin profilaktikası ən vacib məsələlərdən biridir.*



## İslamiada: Yunan-Roma güləşçimiz finalda!

16

*V İslam Həmrəyliyi Oyunlarında yunan-Roma güləşçimiz Ülvü Qənizadə uğurlu çıxışını davam etdirir.*

# Bölgələrin inkişafında yeni mərhələ!

*Dövlət başçısının İsmayıllıya, Qobustana, eləcə də Ağsuya səfəri regionların inkişafına növbəti töhfədir*










***Azərbaycan Prezidentinin bölgələrə hər bir səfəri regionların inkişafına, vətəndaşların rifahına, firavan həyatın təminatına yönəlib. Dövlət başçısının İsmayıllıya, Qobustana, eləcə də Ağsuya səfəri regionların inkişafına növbəti töhfədir. Bu gün ölkəmizin regionlarda böyük infrastruktur layihələri həyata keçirilir, müasir yollar çəkilir, sosial obyektlər inşa edilir. Heç bir layihə təxirə salınmır.***

Bu, onu deməyə əsas verir ki, Azərbaycan Prezidentinin siyasətinin mərkəzində vətəndaşların rahat həyat şəraiti və məmnunluğu dayanır. Bu səfərlər bölgələrin sosial-iqtisadi inkişafına təkandır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıya səfəri çərçivəsində "Basqal Resort & Spa" otelinin açılışında iştirak ediblər. Dağlıq ərazidə yerləşən və səfalı meşələrlə əhatə olunan "Basqal Resort & Spa" oteli 179 otaq və lüks nömrələrdən, üçotaqlı 4 kottecdən və isidilən açıq hovuzlu 1 kottecdən ibarətdir. Bu gün Azərbaycanın bir çox region və ərazilərində yüksək səviyyəli, müasir tələblərə cavab verən otellər inşa edilərək istifadəyə verilib. Dünyada tanınmış və inkişaf etmiş böyük otel şəbəkələri artıq ölkəmizdə fəaliyyət göstərir və onların sayı durmadan artır. Müasir günümüzdə demək olar ki, ölkənin hər bölgəsində turistləri qarşılayacaq otellər vardır ki, bu da uğurlarımız sırasındadır. Vurğulamaq yerinə düşər ki, turizm sahəsi xidmət sektoru olmaqla bərabər, həm də iqtisadiyyatın əsas maliyyə mənbəyi kimi çıxış edir. Bu gün ölkəmizdə mövcud olan otellər sırasına daha biri də əlavə olundu. Əlbəttə ki, ölkəmizdə müasir tələblərə cavab verən otellərin inşası Azərbaycanın iqtisadi gücünün təcəssümüdür. Bu, dünyada pandemiyanın davam etməsinə, iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, ölkəmizdə sosial-iqtisadi infrastruktur layihələrin icrasının davamlı olduğunu bir daha təsdiqləyir.

## MÜASİRLİYİ VƏ GÖZƏLLİYİ İLƏ SEÇİLƏN "BASQAL RESORT & SPA" OTELİ

"Basqal Resort & Spa" otelində qonaqlar dünya mətbəxinin və milli mətbəximizin təamlarını təqdim edən müasir və möhtəşəm "SƏDƏF" restoranının yeməklərindən həzz alıb, dağlara və mənzərəli guşələrə açılan "MÜCRÜ LOBBY LOUNGE"da zərif və ənənəvi Azərbaycan çayından içərək dincələ biləcəklər.

Şübhəsiz ki, bu obyektin işə başlaması qeyri-neft sektorunun daha da inkişafına zəmin yaradacaq. Digər tərəfdən, regionlarda yaşayan insanlar iş yerləri ilə təmin ediləcəkdir. "Basqal Resort & Spa"nın 120 nəfərlik "Hələbi" və "Heyrati" konfrans zallarında biznes konfrans, seminar və tədbir keçirmək üçün hər cür şərait yaradılıb. Həmçinin açıq havada tədbirlərin keçirilməsi üçün burada geniş imkanlar mövcuddur. Bölgələrdə tikilən otellər də öz müasirliyi, gözəlliyi ilə seçilir. Belə ki, Azərbaycanın turizm mərkəzinə çevrilən Qəbələ şəhərində bir neçə beşulduzlu otel fəaliyyət göstərir. Təsadüfi deyil ki, Qəbələ həm yaz-yay, həm də qışturizmi üçün ideal bölgə hesab edilir. "Qafqaz Tufandag Mountain Resort Hotel", "Qafqaz Sport Hotel", "Qafqaz Karvansaray Hotel", "Qafqaz Gabala City Hotel" və s. öz müasirliyi, dizayni, rahatlığı baxımından diqqətəlayiqdir. Regionların sosial-iqtisadi inkişafı layihələri çərçivəsində istifadəyə verilən turizm obyektləri sırasında Gəncədə "VEGO" , Naftalanda "Chinar Hotel & SPA Naftalan", "Naftalan Hotel by Rixos", "Qarabağ SPA and Resort", Qusarda "Şahdağ", "Pik Palas", Qaxda "El Resort", Tovuzda "Ayan Palace" otellərini, Şəmkirdə "Excelsior Hotel Shamkir", Şəkidə "Green Hill İnn" mehmanxanalarını və Şəkidə "Shaki Palace" otelini qeyd etmək olar ki, onların da hər biri müasirliyi ilə diqqət çəkir. Təbii ki, Azərbaycanda olan otellər qeyri-neft sektorunun, eləcə də turizmin inkişafına töhfə verir.

## ZƏNGİN TARİXƏ VƏ MƏDƏNİ İRSƏ SAHİB "BASQAL" DÖVLƏT TARİX-MƏDƏNİYYƏT QORUĞU

Son illər ölkəmizdə tarixi abidələrin bərpası və qorunması istiqamətində bir sıra layihələr icra olunub. Ölkə başçısının böyük diqqət və qayğısı sayəsində ölkəmizdə tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir.

Ardı Səh. 3



AMALIZ

# Bölgələrin inkişafında yeni mərhələ!

*Dövlət başçısının İsmayıllıya, Qobustana, eləcə də Ağsuya səfəri regionların inkişafına növbəti töhfədir*



Əvvəli-Səh-4

Xalqımızın yaratdığı mədəni irs nümunələrinin dünyada tanıdılması istiqamətində də uğurlara imza atılıb. İçərişəhər memarlıq kompleksi, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Qobustandakı muzey isə 2013-cü ildə Avropanın ən yaxşı muzeyləri sırasında olub. İsmayıllı rayonu Basqal qəsəbəsinin ərazisi zəngin tarixi və mədəni irsə sahibdir. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğu Basqal qəsəbəsinin qədim hissəsini əhatə edir. Qoruğun ərazisində orta əsrlərə aid Qalabaşı qalası, Qoşabulaq, Dəmirçibazar, Dərəməhəllə, Xarabiyan, Kələküçə, Qəlibgah, Çayqırağı kimi tarixi küçələr, Bazar meydanı yerləşir. Basqalın IX-XIX əsrlərə aid istehkamları, Şeyx Məhəmməd məscidi, Hacı Bədəl məscidi, su və kanalizasiya şəbəkələri, tarixi hamamları, sənətkar karxanaları, mülkləri tarix-mədəniyyət abidələri mədəni irsimizin qiymətli nümunələri sırasındadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllı rayonunda olarkən "Basqal" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində aparılan və icrası nəzərdə tutulan tikinti-bərpa işləri ilə tanış olublar. Məlumat verilib ki, etnoqrafik və elmi-tarixi araşdırmalar nəticəsində Basqalın tarixi dərindən araşdırılaraq qoruğun elmi-inventar fondu hazırlanıb, əski əlifba ilə yazılmış dini, elmi və sosial həyatla bağlı minlərlə qiymətli əlyazma mətni aşkar edilərək fonda təhvil verilib. Basqal və ətraf ərazilərin tarixi və mədəni irsi ilə birbaşa bağlı olan qeyri-maddi mədəni irs nümunələri toplanıb, qədim divarüstü yazılar, daş qəbirlər, müxtəlif kitabələr dərindən tədqiq edilib və dövlət mühafizəsinə götürülüb. Basqalda yaşayan əhalinin son iki yüz il ərzində məşğuliyyəti, sənətkarlıq nümunələrinin tarixi təkamülü üzə çıxarılıb, elmi-publisistika və mədəni turizm sahələrində istifadə ediləcək çoxsaylı tarixi materiallar əldə olunub. Basqalın mədəni irsinin əsas elementi olan kəlağayı naxışları toplanıb, inventarlaşdırılıb və nəşr edilib.Həmçinin, qoruğun ərazisində başladılan təmir-bərpa, konservasiya və yenidənqurma işlərinin elmi-nəzəri bazasını formalaşdırmaq, gələcəkdə aparılacaq tikinti və bərpa işlərinin mədəni irsin və yerli memarlıq ənənələrinin tələblərinə uyğun şəkildə həyata keçirilməsini təmin etmək üçün müvafiq normaların müəyyənləşdirildiyi "Basqal Mədəni İrsi: Təmir-bərpa kitabı" elmi-praktiki dərslik ərsəyə gətirilib.Diqqətə çatdırılıb ki, Dövlət Turizm Agentliyi tərəfindən tarixən Basqalın mərkəzi hesab olunan orta əsrlər yol mədəniyyətinə xas olan pilləkənvari və daş döşəməli yolların, ənənəvi hasarların və qədim taxta qapı-darvazaların qorunub saxlanıldığı 8 tarixi məhəllənin birləşdiyi Bazar meydanının abadlaşdırılmasına xüsusi diqqət yetirilib.

### BASQAL HAMAMI YERLİ ƏHƏMİYYƏTLİ MEMARLIQ ABİDƏSİ KİMİ

VII əsrə aid memarlıq abidəsi olan Basqal hamamı klassik Şərq memarlıq üslubunda inşa edilib. "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisində yerləşən Basqal hamamı yerli əhəmiyyətli memarlıq abidəsi kimi (inv.4466) dövlət mühafizəsinə götürülüb. Məlumat verildi ki, qoruğun mühüm tarixi abidələrindən biri hesab olunan Basqal hamamı maddi-mədəniyyət nümunələrimizin qorunması məqsədilə dövlət nəzarətinə götürülüb, Bazar meydanında Hamam Muzeyi olaraq əsaslı şəkildə bərpa edilib. Muzeydə Azərbaycanda hamam mədəniyyətinin özəllikləri, inkişafı haqqında, eləcə də hamamla bağlı xalq adət və ənənələri, onun külxana adlanan döşəməaltı istilik sistemi haqqında maraqlı məlumatlar təqdim olunur. Aparılan tədqiqatlar nəticəsində 1854-cü ildə tikilən tarixi-memarlıq



abidələrindən biri olan Hacı Bədəl məscidi, nəhəng gövdəsi və iri koğuşu ilə seçilən, dünyada əkilmə tarixi dəqiq bilinən yeganə ağac, 1563-cü ilə aid edilən və keçmişdə Basqal camaatı tərəfindən "Pir Çinar" adlandırılaraq müqəddəs hesab edilən çinar ağacı, XV əsrə aid olunan, 2020-ci ildə arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılıb tarixi üslubda yenidən təmir edilmiş "Pir çinar bulağı" və onlarla digər tarixi abidələr haqqında müfəssəl məlumatlar əldə edilib. Basqal qəsəbəsi nadir memarlığı, qədim ipəkçilik, dəmirçilik kimi xalq sənətkarlıq ənənələri və orta əsr şəhərsalma mədəniyyəti ilə Azərbaycanın mədəniyyət tarixində xüsusi əhəmiyyətə malikdir. Basqal tarixən Lahıc, Şəki, Qəbələ və Şamaxıdan gələn yolların kəsişməsində yerləşərək qovşaq funksiyasını, sosial-iqtisadi və ticarət mərkəzi rolunu oynayıb. Əlbəttə ki, tarixi abidələr daş yaddaşımıza çevrilib və hər bir xalqın kimliyini, keçdiyi tarixi yolu xatırladır. Bu abidələrin qorunması istiqamətində dövlətimiz tərəfindən ardıcıl tədbirlər həyata keçirilir.

"Qisas" əməliyyatı Ermənistana bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz

Prezident İlham Əliyev avqustun 12-də Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibə verib. Dövlət başçısı müsahibədə diqqətə çatdırıb ki, "Qisas" əməliyyatı Ermənistana bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz. Nə kiminsə bəyanatı, nə kiminsə açıqlaması, nə də hansısa telefon zəngi. Heç nə və heç kim. Bunu Azərbaycan xalqı yaxşı bilir. İkinci Qarabağ müharibəsi bunu göstərmişdir. Əminəm ki, qarşı tərəf də bunu bilir. Sadəcə olaraq, hərdən bir bunu unudur. Ona görə bu faciəvi hadisələr baş verir.

Müharibədə Zəfər çaldığımızı, ərazi bütövlüyümüzü bərpa etdiyimizi xatırdaladan dövlətimizin başçısı bildirib: "Nə üçün bizim övladlarımız müharibədən sonra ölməlidir? Nə üçün ermənilər tərəfindən öldürülməlidir? Biz buna imkan verə bilmərik. Bir daha demək istəyirəm, əgər yenə də buna oxşar təxribat təkrarlanarsa, cavab daha sərt olacaq, daha da peşman olacaqlar, daha gur səslə imdad diləyəcəklər. Amma yenə də deyirəm, bizim niyyətimiz yeni müharibə başlamaq deyil. Kifayətdir. Biz istədiyimizə nail olmuşuq".



Azərbaycan Prezidenti vurğulayıb ki, bizim istəyimiz erməni silahlı birləşmələrinin Qarabağı birdəfəlik tərk etmələridir. Bu, Ermənistanın öhdəliyidir. 2020-ci il noyabrın 10-da Ermənistan tərəfindən imzalanmış kapitulyasiya aktında təsbit edilib.

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, Kəlbəcər, Laçın, Zəngilan rayonlarında heyvandarlığın çox böyük perspektivləri var. Biz vaxt itirmədən artıq ikinci ildir ki, çobanları qoyun sürüləri ilə artıq oraya göndərmişik və bunun nəticəsini görürük. Arıçıları göndərmişik. Artıq Kəlbəcər, Laçın rayonlarında yol boyunca yüzlərlə arıçı öz təsərrüfatını qurub və bol məhsul götürür. Artıq biz bal ixracatçısına çevrilmişik. Dövlətimizin başçısı bildirib ki, Füzuli, Ağdam, Cəbrayıl, Qubadlı rayonlarında taxılçılıq, həmçinin üzümçülük, meyvəçilik, fındıqçılıq sahələri inkişaf etdirilməlidir. Dövlət öz töhsiyələrini verəcək, fermerlərə, oraya qayıdacaq vətəndaşlara həm dəstək göstərəcək, subsidiya verəcək, tövsiyə verəcək, onların yetişdirdikləri məhsulu bazarlara çıxarmaq üçün dəstək olacaq.

"Yenə də deyirəm, bu bölgədə - Şərqi Zəngəzur və Qarabağ bölgəsində kənd təsərrüfatının inkişafı, ən müasir əsaslar üzərində qurulmalıdır. Çünki biz işlərə faktiki olaraq sıfırdan başlayırıq, ona görə səhvə yol verə bilmərik. Vaxtilə Azərbaycanda aparılmış kənd təsərrüfatı islahatı zamanı buraxılan səhvlərə yol verə bilmərik. Hər şey düzgün, şəffaf olmalıdır və əminəm ki, bunun nəticəsində ən böyük məhsuldarlıq məhz işğaldan azad edilmiş torpaqlarda olacaq", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

### "Azərbaycanda taxılla təminat sahəsində heç bir problem yoxdur"

"Bildiyiniz kimi, Rusiya-Ukrayna müharibəsi nəticəsində bir çox ölkələr fiziki cəhətdən öz əhalisini buğda ilə, taxılla təmin edə bilmirlər. Çünki taxılın əsas ixtracatçıları Rusiya və Ukrayna olduğu halda, indi müharibə əlbəttə ki, bu məsələdə çox böyük əngəllər törətmişdir. Ancaq Azərbaycanda bu sahədə heç bir problem yoxdur."

Dövlətimizin başçısı qeyd edib: "Biz ənənəvi olaraq taxılı da, gübrəni də Rusiyadan alırıq. Rusiyalı tərəfdaşlarımızla əldə edilmiş razılaşmalar nəticəsində Azərbaycana istədiyimiz qədər həm gübrə, həm də taxıl ixrac ediləcək və edilir. Gübrəyə gəldikdə isə, bildiyiniz kimi, artıq biz özümüz də gübrə istehsalçısı olmuşuq və hətta karbamid gübrəsini ixrac edirik. Amma digər gübrələr Azərbaycana idxal edilir".

Prezident İlham Əliyev bildirib ki, bu amillər reallıqdır və biz real həyatda yaşayırıq. "Özümüzü bütün problemlərdən tam sığortalamaq üçün əməli işlər aparırıq və aparacağıq. Əminəm ki, növbəti illərdə həm bu gün mövcud olan əkin sahələrində daha bol məhsul götürmək üçün suvarma layihələri, düzgün aqrotexniki tədbirlərin görülməsi və digər tədbirlər, subsidiyalar nəticəsində biz məhsuldarlığı böyük dərəcədə artıra biləcəyik", - deyə dövlətimizin başçısı əlavə edib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ərzaq təhlükəsizliyi: Sosial TƏMİNAT üçün mühüm FAKTOR!

***Bu gün hər bir vətəndaşın mənafeyi əsas tutulmaqla gerçəkləşdirilən aqrar islahatlar ölkə iqtisadiyyatında bazar münasibətlərinin qurulmasına, torpaq və əmlakın səmərəli istifadə edilməsinə, aqrar bölmənin sahə strukturunun təkmilləşdirilməsinə, sahibkarlığın formalaşması və inkişafına yönəlmişdir.***



*İLHAM ƏLİYEV: "Biz bütün ərzaq məhsullarını, yaxud da kənd təsərrüfatı məhsullarını Azərbaycanda tam həcmdə istehsal etməliyik"*

Və bu kursu keyfiyyətcə yeni mərhələdə uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin çevik və işlək mexanizmlər əsasında gerçəkləşdirdiyi islahatlar nəticəsində respublikada aqrar-sənaye kompleksini inkişaf etdirmək, ərzaq təminatını yaxşılaşdırmaq üçün, ilk növbədə, qanunvericilik bazası möhkəmləndirilmiş, fermerlərə yanacağın, motor yağının və gübrənin alınmasına çəkilən xərclərin 50 faizinin dövlət tərəfindən ödənilməsi, taxıl əkinlərinə görə subsidiyaların verilməsi təmin edilmiş, texniki təminatın yaxşılaşdırılması üçün "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yaradılmış, istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnikanın və gübrələrin verilməsinə başlanılmışdır. Bütün bunların nəticəsidir ki, indi kənd təsərrüfatı məhsulları istehsalında özəl bölmənin xüsusi çəkisi 99,7 faizə çatmışdır. Belə ki, Prezident İlham Əliyevin "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında" imzaladığı Fərmanı dövlətin aqrar sahəyə göstərdiyi diqqət və qayğısının göstəricisidir. Dövlət başçımızın imzaladığı Fərmanda deyilir: "Ötən dövrdə Azərbaycanda kənd təsərrüfatı sürətlə inkişaf edərək, qeyri-neft iqtisadiyyatının mühüm sahələrindən birinə çevrilmişdir. Aqrar sektorda həyata keçirilən islahatlar və yeni çağırışlara uyğun strateji hədəflərin müəyyənləşdirilməsi kənd təsərrüfatının davamlı inkişafına əhəmiyyətli təsir göstərmişdir. Bu çərçivədə elektronlaşmanın tətbiqi, dövlət xidmətlərinin optimallaşdırılması, eləcə də səmərəli idarəetmə sisteminin qurulması aqrar sahədə keyfiyyət dəyişikliyini şərtləndirmiş və emal sənayesinin güclənməsi üçün əlverişli imkanlar yaratmışdır.Ölkədə aqrar emal sənayesinin dayanıqlı inkişafı qeyri-neft sektorunun ixrac potensialının möhkəmləndirilməsi və ərzaq təhlükəsizliyinin təmin olunması baxımından vacibdir. Bunu nəzərə alaraq, kənd təsərrüfatının yüksəlişinə dəstək mexanizmi məqsədyönlü şəkildə davamlı olaraq təkmilləşdirilməlidir". Həmçinin, Fərmanda qeyd olunur ki, rəqabətədavamlı kənd təsərrüfatı məhsullarının emalı sənayesinin genişləndirilməsi və istehsalın dəyər zəncirinin həlqələri üzrə artırılması məqsədilə istehsalçıların müvafiq resurslara, o cümlədən əlverişli maliyyə resurslarına asan çıxışının təmin edilməsi, bazar infrastrukturunun və aqrar biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində işlərin sürətləndirilməsi məqsədi ilə bu Fərman qəbul olunub.

## BİZ GƏRƏK ƏRZAQ TƏHLÜKƏSİZLİYİNƏ DÜŞÜNÜLMÜŞ ŞƏKİLDƏ YANAŞAQ

Sözsüz ki, etibarlı ərzaq təminatı iqtisadi sabitliyin və sosial dayanıqlılığın əsas şərtidir. Dövlət başçısı bütün çıxışlarında ərzaq təhlükəsizliyinin prioritet olduğunu bildirir və bu sahənin daima diqqət mərkəzində olduğunu vurğulayır. Belə ki, Prezident İlham Əliyevin sədrliyi ilə rayonlarda respublika müşavirələrində də bildirmişdir ki, ərzaq təhlükəsizliyi prioritet məsələlərdəndir və bu sahədə əldə edilmiş nailiyyətlər çox sevindiricidir: "Ərzaq təhlükəsizliyinin təmin edilməsində önəmli addımlar atılır və bu məsələ ilə bağlı göstəriş verilib. Ərzaq təhlükəsizliyi o demək deyil ki, biz bütün ərzaq məhsullarını, yaxud da kənd təsərrüfatı məhsullarını Azərbaycanda tam həcmdə istehsal etməliyik. Biz gərək ərzaq təhlükəsizliyinə, necə deyərlər, düşünülmüş şəkildə yanaşaq. Bu ərzaq təhlükəsizliyinin böyük hissəsi, təbii ki, Azərbaycanda formalaşmalıdır və əgər indi buğda istehsalını istisna etsək, bütün digər əsas ərzaq-qida məhsulları ilə özümüzü böyük dərəcədə təmin edirik. Ancaq, eyni zamanda, bu, bizim ixrac imkanlarımıza da maneçilik törətməməlidir. İxrac bazarlarına çıxarıla biləcək məhsullara da diqqət yetirilməlidir". Fəxrlə demək lazımdır ki, hazırda ölkəmizdə aqrar sahə özünün dinamik inkişafı ilə zamanın çağırışlara cavab verərək, keyfiyyətcə yeni mərhələyə daxil olub. Bu böyük uğur, ilk növbədə, Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin kənd təsərrüfatına, bu sahədə çalışan bütün zəhmətsevər fədakar insanlara göstərdiyi, bir an belə azalmayan diqqət və qayğı sayəsində mümkün olub.Son 19 ildə bu istiqamətdə görülən işlərin miqyası və vüsəti heyrət doğurur. Fərəhli nəticələr göz qabağındadır. Belə ki, 2003-2020-ci illər arasında Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı iki dəfə artmışdır. Müqayisə üçün deyək ki, MDB ölkələrinin heç biri aqrar sektorda belə yüksək göstəriciyə nail ola bilməmişdir. Onu da qeyd edək ki, Azərbaycan hökumətinin aqrar sektorda qazandığı uğurlarla kifayətlənmək niyyəti yoxdur. Çünki ölkəmizdə aqrar sektorun böyük potensialı mövcuddur. Bu potensialı hərəkətə gətirmək, əhalinin maddi rifahını daha da yaxşılaşdırmaq üçün son vaxtlar bu sahədə düşünülmüş və məqsədyönlü islahatlar aparılır.

Bəli, bu gün aqrar sektorda aparılan islahatların əsas məqsədi ölkəmizdə istehsal olunan kənd təsərrüfatı məhsulları istehsalının artırılması, onların rəqabət qabiliyyətinin yüksəldilməsi, ekosistemin qorunması, torpaq və su resurslarından daha rasional istifadə edilməsi, son nəticə etibarilə əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Belə ki, mütəxəssislərin sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin 2 fevral 2021-ci il tarixdə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında imzaladığı sərəncam ölkəmizin qarşıdakı 10 il ərzində keyfiyyət etibarilə daha yüksək səviyyəyə çıxması üçün geniş imkan açmışdır. Onların fikrincə, milli prioritetlər dövlətin idarə olunmasında strateji planlaşmanın təcəssümüdür. Bu, ölkəmizin sosial-iqtisadi inkişafının bütün istiqamətləri üzrə risklərin azalmasına, sahələrin sürətli inkişafına töhfə verəcək. Sənəddə digər sahələr kimi, aqrar sektorun da hərtərəfli inkişafı prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib.Qeyd etmək lazımdır ki, COVID-19 pandemiyasının yaratdığı çətinliklər, bütövlükdə, ölkəmizdə kənd təsərrüfatının inkişafına ciddi maneələr yarada bilməmişdir.Belə ki, bu gün ölkənin iqtisadi göstəricilərinə diqqət yetirsək o zaman Azərbaycanda ərzaq məhsullarının bahalaşması prosesinə qlobal iqtisadiyyatda gedən proseslərin məntiqi nəticəsi kimi baxmaq lazımdır. Cari ilin yanvarın 18-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə ölkədə ərzaq təhlükəsizliyi, qiymət artımı və qarşıda duran vəzifələrə həsr olunmuş keçirilən müşavirədə Baş nazir Əli Əsədov qeyd etmişdir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2021-ci ildə həyata keçirilən siyasət nəticəsində ölkəmizdə sosial-iqtisadi inkişaf meylləri davam etdirilmiş, pandemiyanın milli iqtisadiyyata neqativ təsirləri minimuma endirilmişdir. 2021-ci ilin makroiqtisadi göstəricilərinə nəzər salan Baş nazir Ümumi Daxili Məhsulun 5,6% artdığını, onun həcminin 92,8 mlrd. manat təşkil etdiyini bildirdi. Vurğulandı ki, qeyri-neft sektoru üzrə artım 7,2% olmuş, sənaye istehsalı 5.2%, qeyri-neft sənayesi isə 18,9% artmışdır. Ölkənin strateji valyuta ehtiyatlarının 2,5 mlrd. dollara yaxın artaraq 53,2 mlrd. dolları ötdüyü və xarici dövlət borcunu 6 dəfədən çox üstələdiyi bildirildi. Bütövlükdə 2021-ci ildə ölkədə makroiqtisadi və maliyyə sabitliyi təmin olunmuşdur. Qeyd olundu ki, bununla belə, orta illik inflyasiya 6,7%, o cümlədən ərzaq inflyasiyası 8,1%, qeyri-ərzaq inflyasiyası 5,1% təşkil etmişdir. İnflyasiyanın illik səviyyəsi 12% olmuşdur. Bütövlükdə qlobal istiləşmə və quraqlıq, dəyər zəncirinin qırılması və tələb-təklif arasında balansın pozulması, habelə daşınma-logistika xərclərinin artması və enerji daşıyıcılarının sürətlə bahalaşması qlobal bahalaşmanı şərtləndirən əsas faktorlardır.

## BİZ BUĞDADAN BAŞQA DİGƏR ƏSAS ƏRZAQ MƏHSULLARI İLƏ ÖZÜMÜZ-ÖZÜMÜZÜ TƏMİN ETMƏLİYİK, MƏN BUNA İNANIRAM

Prezident İlham Əliyev ölkənin taxıla olan tələbatın ödənilməsinə böyük önəm verdiyi ilə bağlı bildirmişdir: "Ona görə hər kəs bu real vəziyyəti görməlidir və nə mümkünsə biz edirik. Mən demək olar ki, gündəlik formatda bu işlə məşğul oluram. Ümid edirəm ki, ölkəmizdə, o cümlədən ki, kənd təsərrüfatında aparılan islahatlar, iqtisadi mühitin və biznes mühitin yaxşılaşdırılması sayəsində biz böyük dərəcədə bu məqsədlərə çatacağıq. Hər halda biz buğdadan başqa digər əsas ərzaq məhsulları ilə özümüzü təmin etməliyik, mən buna inanıram". Dövlət başçısı bu gün taxılçılıqda məhsuldarlıq 32 sentnerdir, yəni 3,2 ton olduğunu deyib: "Əgər bu rəqəm 4 tona, 4,5 tona çatsa, bu, mümkündür, çünki iri fermer təsərrüfatlarının bəzilərində 7 tondur, bəzilərində 6 tondur. Mən bu təsərrüfatlarda olmuşam və bu təsərrüfatların yaradılmasında da fəal iştirak etmişəm. Onda biz mövcud əkin sahələrində özümüzü maksimum dərəcədə ərzaq buğdası ilə təmin edə bilərik". Dövlət başçısı, həmçinin azad edilmiş torpaqlarda vaxt itirmədən əkin işlərinə başlanıldığını da bildirdi: "Özəl şirkətlərə, fermerlərə təlimat vermişik və artıq orada əkin işləri başlanıb. Amma biz onu da bilməliyik ki, azad edilmiş torpaqlar sovet dövründə daha çox heyvandarlıq üçün istifadə olunurdu. Yəni orada - dağlıq ərazilərdə, xüsusilə Kəlbəcər, Laçın, Zəngilan rayonlarında bitkiçiliklə məşğul olmaq ənənəsi olmayıb. Orada üzümçülük, tütünçülük, heyvandarlıq, pambıqçılıq inkişaf etmişdi. Ermənilər işğal dövründə 100 min hektarda taxıl əkirdilər və təqribən 100 min tona yaxın buğda əldə edirdilər. Yəni bu, Ermənistan üçün böyük rəqəmdir. Amma bizim üçün bu, böyük rəqəm deyil. Əgər azad edilmiş mövcud torpaqlarda taxılçılıq üçün yararlı olan və məqbul sayılan yerlərdə əkin aparılsa, indiki məhsuldarlıqla təqribən 200 min tona yaxın buğda götürmək mümkündür. Yəni bu da reallıqdır. Yəni bu, bizim kəsirimizi, 1,3 milyonluq kəsirimizi örtmür. Onu da bilməliyik ki, əhali artır, ildən-ilə tələbat artır, pandemiyaya görə ölkəmizə xarici vətəndaşların gəlişində azalma olub".

## İŞĞALDAN AZAD EDİLMİŞ TORPAQLARDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI

Məlum olduğu kimi, Ermənistanın təcavüzü nəticəsində min hektarlarla əkinə yararlı torpaq sahələri yararsız hala düşmüşdür. Torpaqların uzun müddət əkilməməsi, becərilməsi onun korlanmasına səbəb olmuşdur ki, bu da gələcəkdə həmin torpaqlardan yüksək məhsul əldə etməyə zəmanət vermir. İşqal nəticəsində hidrotexniki qurğuların, kollektor-drenaj şəbəkələrinin, kanalların, su hövzələrinin dağıdılması küllü miqdarda vəsaitlə ölçülür və əgər torpaqlarımız işqal altında olmasaydı bu gün aqrar sahə daha sürətlə inkişaf etdirilər və iqtisadiyyatımızın ən qabaqcıl sahəsinə çevrilə bilərdi. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, işğal altında olan kənd təsərrüfatına yararlı 600 min hektara yaxın torpaq sahəsinin, 231,056 əkin, 352 min hektara yaxın örüş - otlaq və biçənək sahəsinin illər boyu istifadə edilməməsi əkilib- becərilməməsi, korlanması qəbuledilməzdir və inkar olunmazdır ki, həmin sahələrdən min tonlarla taxıl, pambıq, kartof, üzüm, tütün, tərəvəz götürmək mümkün idi. Təəssüflər olsun ki, erməni təcavüzkarlarının işğalı nəticəsində əhalimiz öz torpaqlarını əkib becərməkdən məhrum olmuş və bu dövrlərdə yüz min tonlarla kənd təsərrüfatı məhsulu itirilmişdir.

Lakin bütün bunlara baxmayaraq, 44 günlük Vətən müharibəsində tarixi qələbəmiz ölkəmizin hərtərəfli inkişafı və tərəqqisi üçün geniş imkanlar açmışdır. İndi ən vacib vəzifə bu imkanlardan maksimum bəhrələnmək, doğma Vətənimizi daha güclü və qüdrətli etməkdir.

Bəli, Azərbaycan kəndini qarşıdakı illərdə parlaq gələcək gözləyir. Bu gün işğaldan azad edilmiş ərazilərdə aqrar inkişafın yeni, Azərbaycan modeli qurulur. Bu model tezliklə ölkəmizin digər regionlarında da tətbiq olunacaq. Bir sözlə, Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafı ilə bağlı verdiyi sərəncamlar və görülən işlər əldə olunan nailiyyətləri sübut edir. Və bütün bunlar, onu deməyə əsas verir ki, Azərbaycan yaxın gələcəkdə, digər sahələrdə olduğu kimi, kənd təsərrüfatı sektorunda da regionun, eləcə də, Avropanın lider dövlətinə çevriləcək.

**RƏFİQƏ KAMALQIZI**

***Dini ocaqlarımıza, məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyədə olduğunu nümayiş etdirir. Söz yox ki, Azərbaycan dünyəvi, müasir, dünyaya açıq olan dövlət olmaqla yanaşı, milli dəyərlərə, adət-ənənələrinə də böyük hörmətlə yanaşan bir ölkədir.***

# Dini turizm məkanı: “Diri Baba” türbəsi

Əvvəli-Səh-2

Dövlət başçısının mütəmadi olaraq din xadimləri ilə görüşməsi, dini konfessiyalara maddi yardımlar edilməsi, dini ibadət yerlərinin təmir-bərpa olunması fikirlərimizə əsas verir. Təbii ki, bu Azərbaycanın iqtisadi gücü olması ilə yanaşı, əmin-amanlığın hökm sürməsi kimi mühüm faktorlarla irəli gəlir. Onu da qeyd edək ki, ölkəmizə səfər edən turistlər tariximiz, mədəniyyətimizlə yaxından tanış olmaqla yanaşı, Azərbaycanda hökm sürən dini tolerantlığı, multikultural dəyərləri görürür və dini mənsubiyyəti əks etdirən maddi-mədəniyyət nümunələrinə də böyük maraq göstərirlər. Ərazisində qədim tarixi yerlərin, dini abidə və məkanların olduğu Azərbaycanda turizmin bütün növlərinin inkişafına xüsusi önəm verildiyi zamanda dini turizm də bu sırada özünəlayiq yer tutur. Ölkəmizdə kifayət qədər ziyarətgah yerlərimiz var ki, bu da hər bir kəsdə maraq oyatmış olur. Naxçıvan ərazisindəki Əshabi-Kəhf, Bakıda Bibiheybət məscidi, Nardaran piri, Mirmöhsün ağanın məqbərəsi, Gəncədə İmamzadə piri geniş tanınan ziyarət yerləridir ki, turistlər də bu yerləri ziyarət etməkdə maraqlıdırlar. Ölkəmizdə olan yüzlərlə belə yerlərin adını çəkmək olar. Bu sırada ”Diri baba” piri də əhəmiyyət kəsb edir. ”Diri baba” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il qərarı ilə ölkə əhəmiyyətli tarix və mədəniyyət abidəsi kimi qorunur.

## *Prezident İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva "Diri Baba" türbəsində turizm infrastrukturunun yaradılması ilə bağlı aparılan yenidənqurma işləri ilə tanış olublar*



### TÜRBƏ ŞİMAL-QƏRB TURİZM DƏHLİZİNDƏ VACİB DAYANACAQ KİMİ TURİSTLƏRİ QƏBUL EDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci Xanım Mehriban Əliyevanın avqustun 12-də Qobustan rayonuna səfəri zamanı burada yerləşən ”Diri Baba” türbəsində turizm infrastrukturunun yaradılması ilə bağlı aparılan yenidənqurma işləri ilə tanış olmaları bir daha dini abidələrimizə dövlətimiz tərəfindən göstərilən qayğının və dini turizmin inkişafına ayrılan diqqətin bariz nümunəsidir. 1402-ci ildə Şirvanşah hökmdarı I İbrahimin əmri ilə tikilən ”Diri Baba” türbəsi dövlət mühafizəsinə götürülmüş ölkə əhəmiyyətli memarlıq abidəsidir. Sufi şeyxlərindən birinin şərəfinə tikilən türbənin bir hissəsi qaya içərisində yerləşdiyindən Qafqazın ən nadir abidələrindən hesab olunur. İkimərtəbəli türbə, yaxınlığında yerləşən süni şəkildə yaradılmış bir neçə mağara və kaha, həmçinin üzbəüz orta əsrlərə aid qəbiristanlıq və qədim türbə qalıqları birlikdə vahid bir kompleks əmələ gətirir. ”Diri Baba” türbəsi Orta əsr Şirvan-Abşeron memarlığına aiddir. Bu binanın memarlıq üslubu onu XV əsrdə Bakıda inşa edilmiş görkəmli abidələr, xüsusilə Şirvanşahlar saray kompleksi ilə bağlayır. Türbə müqəddəs məkan sayılır və insanlar bu türbəyə tapınıb və tapınır. Bu nadir maddi-mədəniyyət incisi haqqında el-oba camaatı arasında müxtəlif rəvayətlər hələ də dolaşmaqdadır. ”Diri baba” müqəddəs bir məkandır və bütün Şirvan eli əsrlər uzunu bu ocağa tapınıb. ”Diri baba” bu gün də əzəmətlidir.



Ətrafında əsaslı abadlaşdırma işləri aparılıb. Türbə Azərbaycanın şimal-qərb turizm dəhlizində birinci vacib dayanacaq kimi, il ərzində xeyli sayda turist qəbul edir. Ərazidə turizm imkanlarının yaradılması yerli kiçik sahibkarlığın və icma əsaslı turizm dəyər zəncirinin formalaşmasına, bölgənin digər turizm əhəmiyyətli abidələrinin turizm potensialından istifadəyə və regional turizm klastrının yaranmasına töhfə verəcək. Abidənin tarixi-mədəni əhəmiyyəti ilə yanaşı, turizm potensialı qiymətləndirilərək, həmçinin antropogen və təbii amillərin təsiri ilə deqradasiyaya uğramasının qarşısını almaq məqsədilə Dövlət Turizm Agentliyi tərəfindən burada bir sıra infrastruktur və bərpa işləri aparılıb. Ərazidə bulaq, qurbangah və söhbətgah tikilib, meydan döşəməsi yenilənib, türbəyə qalxan pilləkənlər yenidən üzlənib, ərazi abadlaşdırılaraq oturacaqlar quraşdırılıb. XV əsrə aid və abidənin ayrılmaz tərkib hissəsi olan tarixi qəbiristanlığın ərazisində 40 qəbir tədqiq edilib və annotasiyası hazırlanıb. Bu abidənin daş kitabəsi tədqiq edilərək rəqəmsal surəti çıxarılıb.

### DİNİ ZİYARƏTGAHLARIMIZA, MADDİ-MƏDƏNİYYƏT ABİDƏLƏRİMİZƏ YENİ HƏYAT VERİLİR

Bu gün ölkəmizdə bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, eləcə də bir çoxları yenidən tikilir. Dövlətimiz tərəfindən tarixi-mədəni irsin, eləcə də dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır və bu siyasət işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdirilir. Çoxəsrlik tarixə malik olan abidələrimizə, dini ziyarətgahlarımıza, maddi-mədəniyyət abidələrimizə yeni həyat verilir. Bu gün ölkəmizdə 2200-dən artıq məscid mövcuddur, 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bununla yanaşı, ölkə ərazisində 748 pir və ziyarətgah fəaliyyətdədir. Azərbaycanda dini abidələrin dövlət tərəfindən qorunması, bərpası və tikintisi milli dəyərlərimizə olan münasibətin təzahürüdür. Müstəqillik dövründə yüzlərlə dini abidələrin bərpası və tikintisi fikrimizi əsaslandırır. Azərbaycan xalqının milli-mənəvi və dini dəyərlərinə böyük ehtiramla yanaşan Ümummilli Lider Heydər Əliyev müstəqilliyin ilk illərində sovet dövründə fəaliyyəti dayandırılmış və yararsız vəziyyətə düşmüş məscidlərin bərpası və yenidən qurulmasına xüsusi önəm verib. Belə ki, Ulu Öndər Heydər Əliyevin imzaladığı Sərəncama əsasən, dağıdılmış tarixi Bibiheybət məscid-ziyarətgah kompleksi yenidən tikilərək 1998-ci ildə istifadəyə verildi. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dini məbədlərin bərpası və təmiri, eləcə də yenidən tikilməsi Prezident İlham Əliyev tərəfindən daha genişmiqyaslı şəkildə davam etdirildi. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. Bakıdakı Heydər Məscidi, Gəncədə ”İmamzadə” kompleksi kimi binalar da Azərbaycan milli memarlığının və incəsənətinin nailiyyətlərinin parlaq nümunələri olmaqla yanaşı, insanların ibadət və dua etmələrinə imkan yaradır. Azərbaycanda paytaxt Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində ”Xanım Fatimeyi Zəhra” məscidinin müasir kompleksinin istifadəyə verilməsi müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpasına dövlətimiz tərəfindən ayrılan diqqətin daha bir göstəricisi oldu. Məscidin qəzalı vəziyyətdə olan əvvəlki ikimərtəbəli binasında dindarların ibadəti üçün heç bir şərait yox idi. Məsciddə eyni vaxtda maksimum 500-550 nəfər ibadət edə bilirdisə. indi daha müasir və geniş məscid kompleksində eyni zamanda, 1800 nəfərin ibadət etməsinə şərait yaradılıb. Əminliklə deyə bilərik ki, dini abidələrimizin təmir və bərpası Azərbaycanda bu sahədə dövlət siyasətinin real mənzərəsinin ifadəsidir. Dini ocaqlara olan münasibət Azərbaycanın bugünki həqiqətlərinin təzahürüdür. Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük töhfələr verən Heydər Əliyev Fondunun layihələri sırasında ”Azərbaycan - tolerantlığın ünvanı” layihəsi çərçivəsində həm müsəlman məscidləri, həm də xristian kilsəsi bərpa edilib. Cənab İlham Əliyevin bildirdiyi kimi, bu gün müstəqil Azərbaycan istənilən məsələ ilə bağlı fəxr edə bilər: ”Həm siyasi, həm beynəlxalq nüfuzumuz artır, həm də iqtisadi inkişaf göz qabağındadır və dinlərarası, millətlərarası münasibətlər ən yüksək səviyyədə təmin olunur”.

### TOLERANTLIĞIN KİÇİK MODELİ OLAN NİC QƏSƏBƏSİ

Tolerantlıq mühitinin hökm sürdüyü Azərbaycanda Avropa ölkələrindən gələn turistlər xristianlıqla bağlı abidələrə də üz tuturlar. Şəkinin Kiş kəndindəki alban məbədi, Qəbələnin Nic kəndindəki alban kilsəsi bu qəbildəndir. Azərbaycanda yaşayan qədim yəhudi, xristian, udin və digər milli azlıqların yaşayış məskənləri olan Krasnaya Sloboda, İvanovka və başqa kəndlər dövlətin daim diqqət və qayğısı ilə əhatə olunub. Qəbələ də müxtəlif xalqların bir məkanda yaşadığı yerdir. Bura gələn hər kəs multikulturalizmin Azərbaycanda yaşadığını və bu yaşam tərzinin sülh və dostluq üçün unikal model olduğunu görürlər. Fərqli dinin, fərqli etnosun yaşadığı Nicin timsalında Azərbaycanda mövcud olan multikulturalizmi görməmək mümkün deyildi. Nic kəndi udilərin ən iri yaşayış məskənidir. Tolerantlığın kiçik modeli olan Nic qəsəbəsində hazırda 3 kilsə, 2 məscid var. Ölkəmizdə tarixən mövcud olmuş multikultural dəyərlər sisteminin - Xristian, İudaizm və İslam kimi üç səmavi dinin, bu dinlərə etiqad edən etnosların dini icmalarının və kilsə, sinaqoq və məscidlərin mövcud olduğu, eləcə də müxtəlif azsaylı xalq və etnik qrupların birgə yaşadığı regionlarımızdan biri də Qəbələ rayonudur. Dünyadakı 10 minə yaxın udinin 4 minə yaxını Qəbələnin Nic qəsəbəsində yaşayır. Qəbələnin Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsi 2019-cu ildə Heydər Əliyev Fondu tərəfindən bərpa olunmağa başlanmış və 2020-ci ilin noyabr ayında 44 günlük müharibə zamanı bərpa işləri başa çatdırılmışdır. Bu tarixi irsin yenidən bərpası Azərbaycanda multikultural dəyərlərə verilən önəmin bir göstəricisidir. Bütün xalqların nümayəndələrinin ölkəmizdə azad və əmin-amanlıq şəraitində dini bayramlarını qeyd etmələri onu göstərir ki, ölkəmiz bütün xalqların, bütün səmavi dinlərə tapınanların azad yaşadığı bir dövlətdir.

***Zümrüd BAYRAMOVA***

# Xərçəng: bu qorxunc ölüm kabusundan necə qurtulmaq olar?

***Əsrin bəlasına, insanlığın kabusuna çevrilən bu xəstəliyin müalicə üsulları hər gün təkmilləşdirilsə də, aldığı canların sayı azalmır. İndi dünyada xərçəngdən ölənlərin sayı təhlükəli həddə çatıb.***

*Təbiətdə çarə tükənməzdir. Sadəcə, təbiətin qanunlarını pozmamaq, əksinə, onlara riayət etmək lazımdır*







ARAŞDIRMA

### Qorxulu xərçəng statistikası

Dünyanı bürümüş xərçəng xəstəliyi ölümlərin birinci səbəbidir. 1975-2000-ci illər arasında xərçəng xəstəliyi 2 dəfə artıb, 2030-cu ildə daha 2 dəfə artacağı gözlənilir. Xərçəngə qarşı Mübarizə Beynəlxalq Agentliyinin məlumatına görə, 2030-cu ildə 17 milyon adam bu xəstəlikdən vəfat edəcək.

Bu dəhşətli xəstəlik Amerikada hər il 500 min insanı öldürür. Bu ölkədə hər il 1.5 milyon adama xərçəng xəstəliyi diaqnozu qoyulur. Xərçəng xəstəliyinin qalxanabənzər vəzin xərçəngi, prostat vəzin xərçəngi, qan xərçəngi, dil xərçəngi, yoğun bağırsaq xərçəngi, qaraciyər xərçəngi, düz bağırsaq xərçəngi, süd vəzisi xərçəngi, ağciyər xərçəngi və digər növləri var.

### Qadınlarda və kişilərdə xərçəng növləri

Süd vəzisi xərşəngindən dünyada hər 10 dəqiqədə 1 qadın dünyasını dəyişir. Son 10 ildə Azərbaycanda da süd vəzi xərçəngi 2 dəfəyədək artıb. Demək olar ki, ölkədə hər 7 onkoloji xəstədən biri məhz bu xəstəliyin daşıyıcısıdır.

Azərbaycanda süd vəzi xərçəngi onkoloji xəstəliklər arasında 1-ci yerdə durur. Süd vəzi xərçənginin effektli müalicəsi üçün bir neçə sahənin həkimləri əməkdaşlıq etməlidir- ginekologiya, radiologiya, patanatomiya, şüa terapiyası və onkologiya. Belə bir əməkdaşlıq daha effektiv müalicə aparılmasına səbəb olur.

Kişilərdə isə ağciyər, prostat vəzi və mədəaltı vəzin xərçəngi daha çox aşkarlanır. Burada siqaret və narkotikanın, süni qidaların böyük rolu var.

### Ən hiyləgər xəstəlik

İlk mərhələlərində demək olar ki, heç bir əlamətlə özünü büruzə vermir. Mütəxəssislər onun əlamətlərini məhdud da olsa təyin ediblər. Əgər xərçəng tutub-tutmadığınızı müəyyənləşdirmək istəyirsinizsə, onda bu əlamətlərə diqqət edin.

İfrazat halının dəyişilməsi, 2 həftə keçməsinə baxmayaraq bədən üzvlərində yaranmış yaraların sağalmaması, qeyri-təbii olaraq ifrazat orqanlarında qanaxmanın baş verməsi, sinə, döş və orqanizmin digər üzvlərində şişlərin meydana gəlməsi, qidanı udarkən problemin yaşanması, orqanizmdə ziyil və xallarda dəyişikliyin baş verməsi, davamlı şəkildə, bəzən qan ilə və bəzən isə səsin tutulması ilə öskürəklərin meydana gəlməsi xərçəngin ilkin əlamətləridir.

### Xərçəngin 4 ən yaxın dostu

Süni qidalar - Süni kimyəvi maddələrlə zəngin qidalar, kimyəvi içkilər, əlüstü yeməklər, qırmızı ət xərçəng xəstəliyinə səbəb olan qidalardır. Tütün də böyük paya malikdir. Ümumi fikrə görə süni qidalanma tərzi xərçəngin əsas səbəblərindən biridir.

Oturaq iş - Oturaq iş yoğun və düz bağırsaqların xərçənginin əmələ gəlməsinin riskini çoxaldır. İdarə işindəsinizsə tez-tez stuldan qalxıb hərəkət edin, liftdən istifadə etməməyə çalışın, hər gün azı yarım saat gəzişin, velosiped sürün və ya üzün.

Saç üçün boyalar - Saç boyalarından istifadə edən qadınlar digər qadınlara nisbətən xərçəngə tutulmağa daha çox risklidirlər. İlk növbədə, şübhə doğuran elementlər saç boyalarının tərkibində olan kimyəvi maddələrdir. Saç boyası üçün xınadan və təbii bitkilərdən alınmış məhluldan istifadə edin.

Mobil telefonlar - Gündə 20-30 dəqiqə mobil telefonla danışan insanlarda xərçəng xəstəliyinə tutulma ehtimalı böyükdür. Danışarkən səsi mikrafona qoyun, özünüzdən heç olmasa 1 qarış aralı tutun, ya da qulaqcıqla telefonu aralı tuturaq danışın, cibinizdə gəzdirməyin, 2 nömrə və ya 2 telefon işlətməyin.

Düzgün qidalanma ilə qorunun

Ümumiyyətlə, özünü xərçəng xəstəliyindən qorumaq istəyirsinizsə, onda süfrənizin baş yeməyi meyvə və tərəvəz olmalıdır. İlk növbədə bu, sarı, yaşıl və qırmızı-narıncı meyvələrdir: balqabaq, xurma, ərik və s. Kələmi isə məxsusi qeyd etmək lazımdır. O, qadın onkoloji xəstəliklərinə meyilli olanlar üçün çox xeyirlidir. Həmçinin, çuğundur və ispanaq da xərçəngin müalicəsində xeyirlidir.

Hisəverilmiş ərzaqlar (kolbasa, sosiska) sağlamlığa böyük ziyan vurur. Eyni zamanda, şəkərdən istifadə də məsləhət görülmür, əvəzində təmiz bal qəbul edin. Cola, çipsi, energetik içkilərdən aralı durun. Kök və kök şirəsi xərçəngə qarşı ən yaxşı vasitələrdəndir. Gündə 1 çay qağışı çay sodası, 1 çay qaşığı sirkə qəbul etmək də çox faydalıdır.

Qarabaşaq, buğda, darı, yulaf masada bir-birlərini əvəzləməlidir. Süd məhsullarını aşağı yağlılıqda, 1,5-2,5 % qəbul etmək məsləhət görülür. Keyfiyyətsiz bitki və saxta kərə yağlarından istifadə etməyin.

Vitaminli içkilər çox xeyirlidir. Xüsusilə də, otlardan, çiçəklərdən və bəzi ağacların budaqlarından, meyvələrindən hazırlanmış içkilər için. Misal üçün itburnu, qarağat, moruq, adaçayı, mərsin, başınağacı yarpaqları, cökə, nar qabığı, gicitkən, bağayarpağı, qatırquyruğudan çay hazırlamaq olar. Yaşıl çaydan da istifadə etmək lazımdır.

Təbiətdə çarə tükənməzdir. Sadəcə, təbiətin qanunlarını pozmamaq, əksinə, onlara riayət etmək lazımdır.



**Lalə**

# Bitki yağlarının faydaları nələrdir?

***Bitki efir yağları uzun illər müxtəlif məqsədlər üçün, xüsusilə, elmi və bir çox sahələrdə kommersiya məqsədləri üçün istifadə olunur. Bu istifadə sahələrinin başlanğıcında kosmetika, əczaçılıq, qida sənayesi, aromaterapiya və fitoterapiya gəlir. Bitki efir yağlarının bitki kimyasında mühüm rolu var. Hüceyrələr arasında bu efir yağları məlumat ötürməyə xidmət edir. Balanslaşdırıcı və xarici elementlərdən qoruyurlar. Əhəmiyyətli hormonlar efir yağlarında olur. Bu qiymətli bitki yağları çiçəklərin, meyvələrin, qabıqların, yarpaqların, rizomların, qatranların və ağacın hissələrindən əldə edilir.***



Günümüzdə dərman bitkilərinin və bu bitkilərin efir yağlarının saf və xüsusilə əsas təsiredici maddələrinin əldə edilməsi və qiymətləndirilməsi həm elmi, həm də iqtisadi cəhətdən çox vacibdir. Əldə edilən nəticələr göstərir ki, bu bitkilərin efir yağları mikrob əleyhinə təsirə malikdir. Efir yağlarının və onların komponentlərinin farmakoloji xüsusiyyətləri araşdırılaraq tibb, kosmetika və sənaye sahələrində istifadə imkanlarının faydalı ola biləcəyi bildirilir. Efir yağları bitkinin müəyyən hissələrində, məsələn, ləçəklər, yarpaqlar, meyvələr, qabıq, meyvə gövdəsi, ağac toxuması və ya bitkinin bütün orqanlarında, bəzən də onlar orqanın müəyyən toxumalarında da tapıla bilər. Efir yağlarının tərkibində 2000-dən çox kimyəvi komponent var. Bitki mənşəli müalicə üsullarının tarixi qədim dövrlərə gedib çıxır. Bu bitkilər ənənəvi tibbdə istifadə olunur. Təbii məhsullar olmaqla yanaşı, təsirli və etibarlıdırlar.

Buna görə də təbii müalicələrə marağın güclənməsi və istehlakçı tələbinin də artması efir yağlarının daha ətraflı öyrənilməsi zərurətini özü ilə gətirdi.

Nanə yağının istifadəsi qədim Yapon və Çin ənənəvi dərmanlarına gedib çıxır. Yunan mifologiyasında nanə ətirli bitkiyə çevrilən Menta adlı pərinin hekayəsində xatırlanır.

* Limon kimi nanənin də antimikrobiyal olduğu aşkar edilmişdir.

* Nanənin tərkibində analjezik və antiseptik olduğu bilinən menton var.

* Bu arada, mentol kimyəvi maddəsinin də baş ağrılarını, əzələ ağrılarını və iltihabdan qaynaqlanan ağrıları azaltmaqda təsirli olduğu aşkar edilmişdir.

* Həm də qızdırmanı azaltmaq və irritablı bağırsaq sindromunun simptomlarını aradan qaldırmaq üçün istifadə olunur.

* Nanə, kəpəyi azaltmaqda təsirli olduğu təsbit edilən şampunların tərkib hissəsidir.

* O, həmçinin dəri qıcıqlanmalarından xilas olmağa kömək edə bilər.

* Nanə yağının yayılması da əhval-ruhiyyəni yaxşılaşdıra və stressi azalda bilər.

* Nanə yağının ən məşhur istifadəsi burun tıxanıqlığını aradan qaldırmaq və tənəffüs yollarını təmizləməkdir.

Lavanda sakitləşdirici xüsusiyyətlərinə görə aromaterapiyada ən məşhur və sevimli efir yağlarından biridir.

Qədim dövrlərdə misirlilər mumiyalama prosesində istifadə olunan parçalardan ətir vermək üçün də lavandadan istifadə edirdilər.









Orta əsrlər və İntibah Avropasında lavanda qala döşəmələrini deodorizasiya etmək və dezinfeksiya etmək üçün istifadə edilmişdir.

Lavanda efir yağı aromaterapiyada istifadə edilən ən məşhur və çox yönlü efir yağlarından biridir.

Lavandula angustifolia bitkisindən distillə edilmiş yağ rahatlamağa kömək edir və narahatlıq, göbələk infeksiyaları, allergiya, depressiya, yuxusuzluq, ekzema, ürək bulanması və menstrual kramplarda təsirli olur. Lavanda ətri dinc yuxu təmin edir və demansdan əziyyət çəkənlər üçün həyəcanı azaldır.

Çoxları üçün əhval-ruhiyyəni artıran və narahatlığı aradan qaldıran gözəl qoxusundan başqa, lavanda dəri iltihabını azaltmaqda göbələk və bakteriya əleyhinə yağ kimi də fəaliyyət göstərir.

İştahı yaxşılaşdırmaqda və mədə-bağırsaq problemlərini aradan qaldırmaqda da faydalıdır.

Bundan həşərat kovucu kimi də istifadə etmək olar.

Bu gün saç tökülməsinin qarşısını almaq üçün lavanda digər efir yağları ilə birlikdə istifadə olunur.

2013-cü ildə aparılan bir araşdırma, lavanda efir yağının istifadəsinin bədəni diabet əlamətlərindən, qaraciyər və böyrək problemlərindən, yüksək qan şəkəri səviyyələrindən və çəki artımından qorumağa kömək edə biləcəyi ümid verici nəticələr tapdı.

Lavandanın çox yönlü olmasına baxmayaraq, onun müəyyən sağlamlıq problemlərində effektivliyini sübut edən elmi sübutlar azdır. Məsələn, onların narahatlığı aradan qaldırmaq üçün istifadəsinə dair bir araşdırma hələ də qarışıq nəticələr verdi.

Çay ağacı yağı mikrob əleyhinə xüsusiyyətlərə malikdir, buna görə də yerli sakinlər onu yaraların dezinfeksiya edilməsində və göbələk problemlərinin müalicəsində təsirli hesab edirlər.

Nanə kimi, çay ağacı da öskürək və soyuqdəymə müalicəsində istifadə edilmişdir.

Boğaz ağrısını müalicə etmək üçün yarpaqları suda isladılırdı.

Çay ağacının məsamələri və baş dərisini dərindən təmizləməyə kömək edən dəri təmizləyiciləri və şampunların əsas tərkib hissələrindən biri olduğunu bilirik.

Çay ağacı yağı həşərat dişləmələri nəticəsində yaranan iltihabı və qaşıntıları azaltmaqda da təsirlidir. O, həmçinin dırnaq göbələkləri, ayaq və baş bitlərini müalicə edir. Həm də öskürək və digər tənəffüs problemləri üçün üstünlük verilən yağlardan biridir.

Yağların insana təsiri ilə bağlı SİA-ya açıqlama verən Sağlam qida mütəxəssisi Məhsəti Hüseynova bildirib ki, uçuçu yağların ən geniş yayılmışı dəfnə yarpağı, çay ağacı, rozmarin, lavanda yağıdır: "Uçucu yağlar həm müalicə məqsədli, həm də kosmatologiya, həm əhval-ruhiyyənin yüksəldilməsində istifadə edilir. Uçucu yağların xaricə istifadəsi daha çox tövsiyə olunandır. Daxilə istifadəsi həkim nəzarəti altında olmalıdır. Bu yağlar kor-koranə istifadə olunmamalıdır. Bitkilərdən yağlar iki cür əldə edilir. Sabit və uçucu yağlar.

Uçucu yağlar buxarla distillə edilmiş şəkildə hazırlanır. Çünki tərkibinə olan maddələr və aromalar uçucu olduğundan tez itir və onu saxlamaq çətin olduğu üçün bir çox hallarda uçucu yağlarla sabit yağı qarışdırırlar. Bu zaman uzun müddət saxlanması mümkündür. Uçucu yağlardan ən çox istifadə olunanları sitrus bitkilərinin, limon, portağal, mandalin və s. aid edilir. Bizim ədviyyatlardan olan kəklikotu, çökəni də uçucu yağlar sırasına daxil edə bilərik. Daha çox müalicəvi məqsədlə istifadə edilən baş ağrılarını sakitləşdirən yağlardan lavanda və nanəni istifadə etmək çox faydalıdır. Bəzən soyuqdəymə zamanı , immun sisteminin zəifləməsində mixək yağından da istifadə edilir. Nar çəkirdəyi yağı da uçucu yağlar sırasındadır. Xüsusən, kosmetologiyada çox faydalıdır. Dəridə liftinq effekti verir, qırışları azaldır, hüceyrə yenilənməsinə kömək olur. Jajoba yağı masaj zamanı daha çox istifadə edilir. Bu yağ bütün dəri örtüyünün cavanlaşmasına və qırışların, çatların aradan qaldırılmasına kömək edir. Bir çox insanlarda yuxu problemi olduğunda yağların aroması ilə rahatlıq tapır. Depresiyya, yorğunluq, stresdə də lavanda yağının faydası əvəzsizdir. Yağlardan günəş şüalarından qorunmaq və ya zaqar almaq üçün də istifadə edilir. Dəriyə zərər verməməsi üçün günəşlənərkən iki yağın qarışdırılması məqsədəuyğundur. Əks-halda dərinin yanmasına və qurumağa səbəb olacaq. Berqamot aroması da stresi azaltmağa kömək edir. Yasəmən yağı da bu mənada faydalıdır. Hamilələr, süd verən analar, körpə uşaqlara istifadə zamanı diqqət edilməlidir. Onlara əks təsir edə bilər. Gündəlik uçucu yağların istifadəsi tövsiyə olunmur. Azərbaycanda ən çox istifadə olunan yağ nanədir ki, həm ağrıkəsici xüsusiyyəti var, həm də canlılıq verir. Duş qəbulu zamanı ayaqların istifadə edilməsi halları çoxdur. Bu zaman nəfəs yollarımızın açılması təmizlənməsi üçün faydalıdır".

Sağlamlığa daha çox diqqət yetirmək və daha sağlam həyat tərzi sürmək yaxşıdır, lakin efir yağlarından istifadə kimi daha təbiətə əsaslanan müalicəyə keçid ehtiyatlı olmağı tələb edir. Efir yağları həssas dəridə istifadə edilməməlidir. Hər hansı bir xəstəliyiniz varsa, istifadədən öncə həkiminizlə məsləhətləşməlisiniz.

***Qönçə Quliyeva***

ARAŞDIRMA



# Zəngilana vüqarı kimi, çinarı da qaytarılır

***Kiçik Qafqaz dağlarının cənub tərəfində Arazboyu ərazidə sərt quruluşa malik sıldırımlı qayaları özünə məskən seçən Zəngilanın vüqarı və əzəməti əlindən alınmışdı. 27 il idi ki, bu yurd yerimiz düşmən tapdağı altında əzilir, imdad edirdi. Bu "kürəyini" dağlara söykəyib vüqarla dayanan Zəngilandan əsər-əlamət qalmamışdı. Qəribçilik onun qəddini əymiş, vüqarını incitmişdi. Düşmən tapdağı, yağı səsi, yad əllər, nankor hərəkətlər hüsnünü, gözəlliyini tar-mar etmişdi. Zəngilanın qaməti əyilmişdi sanki. 27 il idi ki, doğma səsə, nəfəsə möhtac idi.***



2020-ci ilin payızına həmin payız başlanan İkinci Vətən Müharibəsi ilə əsarətdə olan bütün torpaqlarımız kimi, Zəngilanının da 27 il küsən baharı gəldi. Bu baharı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev və Milli Ordumuzun qəhrəman, igid əsgərləri gətirdi. Hələ qədim dövrlərdən üzü bəri bağrından axan çayların əmələ gətirdiyi dərin dərələrdən, Oxçu və Bərgüşad çayları arasında füsunkar Süsən dağı silsiləsindən, bu silsilədən cənub-şərqə doğru enərək qarşıda uzanan ucsuz-bucaqsız Ağoyuq düzündən, şimal-şərqində Qarabağ silsiləsi və bu silsilənin getdikcə alçalaraq əmələ gətirdiyi Geyən çölündən, ümumilikdə bir füsunkarlıq abidəsi Zəngilandan düşmən ayağı kəsildi.

### 2020-nin 20 oktyabrı Zəngilana vüqarını qaytardı

Bəli, həmin gün bütün zəngilanlıların sanki yenidən dünyaya gəldikləri gündür, doğum günləridir. 27 illik həsrətin vüsal günüdür. Bu gün 27 il axıdılan göz yaşlarının sevinc göz yaşlarına çevrildiyi gündür. Tək zəngilanlılar üçün yox, bu gün bütün azərbaycanlılar üçün əziz və unudulmaz gündür. Çünki torpağımızın bir hissəsi, canımızın bir parçası, düşmən əlində olan övladımız azad olundu həmin gün. Bu xəbəri xalqına verən insandan xoşbəxt insan varmı? Bu insan xoşbəxtliyi bütöv Azərbaycan qədər haqq edən Ali Baş Komandanımızdır. Həmin günü olduğu kimi xatırlayıram. Cənab İlham Əliyevdən tarixə yazılan yeni şad xəbər:

-Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

Bu gün Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

27 il doğmasını gözləyən Zəngilanın bu qələbədən sonra vüqarı özünə qaytarıldı. Bu ağa, bəy yurdu yenə əvvəlki əzəməti ilə ətrafına qürur saçdı. Yeri gəlmişkən qeyd edim ki, sovet dönəminin 70 ilinin başlanğıcında "bolşevik hərəkatı"nın liderlərinin Azərbaycan bəylərini, ağalarını düşmənə çevirib xalqa təqdim etmələrinə baxmayaraq tariximizin səhifələrində bəylərin, ağaların silinməz izləri var. Onların dövrün siyasi rəhbərləri kimi fəaliyyətləri, ictimai işlərdə fəallığı, məmləkətdə tikdirdikləri məktəblər, məscidlər, körpülər, saldıqları yollar və digərləri bu gün Azərbaycan tarixinin bir hissəsini təşkil edir. Zəngilan rayonunun ərazisi də ötən əsrin əvvəllərində əsasən bəylərin çəltik zəmilərindən və onların özlərinə məxsus yaşayış evlərindən ibarət idi. Bəylərin, ağaların vaxtilə bu yurd yerinin abadlaşmasında xidmətləri danılmazdır.

Elə Zəngilanın vüqarı da coğrafi mövqeyi ilə yanaşı, ağa, bəy yurdu olması ilə sıx bağlıdır. Bu vüqarı Ali Baş Komandanımız, ordumuzun igid əsgərləri qaytardı Zəngilana. Bu yurd azad oldu. İndi Zəngilan vüqarla burada aparılan bərpa işlərinə tamaşa edir. Bir də sıx meşələri, çinarları ilə dünyada məşhur olan Zəngilan vüqarı kimi, çinarlarını ona qaytaran doğmalarını seyr edir.

### Dünyada ikinci, Avropada birinci

Dünyada ikinci, Avropada birinci olan neçə-neçə nadir çinar meşələrinə köksündə yer verən çinarlar diyarı, dağ vüqarlı, çinar əzəmətli Zəngilanın hüriyyəti özünə qaytarıldı. Dağlıq hissələrində 1800-2000 metr hündürlükdə olan enliyarpaqlı meşələrindən aşağıya doğru endikcə subalp və alp çəmənlikləri ilə təbiətin özünün özünə meydan oxuduğu bir möcüzənin fonunda 20 oktyabr möcüzəsi baş verdi, Zəngilan azad oldu.

Zəngilan maddi-mədəniyyət abidələri ilə yanaşı, flora və faunasının zənginliyinə görə də fərqlənir. XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzvininin yazdığına görə, Zəngilan bölgəsi hələ qədim zamanlardan sıx meşələri, münbit vadiləri, yaşıl bitki örtüyü, gur sulu çayları ilə diqqəti cəlb edib. Çinar meşəsi təkcə Zəngilan rayonunun deyil, bütün Azərbaycanın flora-faunasının zənginliyində mühüm yer tutur. Mənbələr sübut edir ki, Azərbaycan Respublikasının Zəngilan rayonunda, Bəsitçay hövzəsində yerləşən təbii çinar meşəsi sahəsinə, ağacların fiziki sağlamlığına, görünüşünə görə dünyada ikinci, bəlkə də birinci meşədir.

Coğrafiyaşünas tədqiqatçı Oqtay Ələkbərov qeyd edir ki, çinar (Platanus) - çinar fəsiləsinin bitki cinsindən olmaqla tarixi çox qədim olan Kaynazoy erasının üçüncü dövr florasının yadigarı sayılır. Digər müəlliflər və coğrafiyaşünaslar qeyd edirlər ki, Zəngilan çinarı görkəminə, fiziki vəziyyətinə, nadir bioekoloji əlamətinə görə bənzərsizdir və onu Şərqin florasının mirvarisi, möhtəşəm gövdəsi və füsunkarlığına görə isə Cənubun nəhəng ağacı adlandırırlar.

Çinar meşəsi çox nadir yaşıllıq füsunkarlıq mənbəyidir və Zəngilan bölgəsi üçün xüsusi, əvəzolunmaz gözəllik verirdi, deyən Bakı Dövlət Universitetinin professoru, tarixçi alim İbrahim Zeynalovun fikirlərinə görə Zəngilan çinarları dünyada bitən 8 çinar növündən biri idi. Çinar ağacının Azərbaycanda iki növünün mədəni mənşəli və yabanılaşmış növlərinin bitdiyi məlumdur. Azərbaycanda yayılan çinar növünün əsasını Zəngilan çinarları təşkil edir. Bu çinar növü Şərq çinarı və ya barmaqyarpaqlı çinar adlanır. Şərq çinarı dünyanın bir sıra bölgələrində, o cümlədən Yunanıstanda dağ ətəklərində, Aralıq və Egey dənizləri sahillərində, Kipr, Krit və Rodos adalarında, kiçik və orta Asiyada, Cənubi Qafqazda geniş yayılıb.

Azərbaycan Xalq Cümhuriyyəti zamanında sahəsi 120 hektara yaxın olan Zəngilanda Çinar meşəsi bütünlüklə Azərbaycana məxsus idi. Azərbaycanda sovet hakimiyyətinin elə ilk illərində Zəngəzur torpaqlarının Ermənistana verilməsi ilə Bəsitçay vadisindəki çinar meşəsinin bir hissəsi - Xaçın çay və Şixavuz çay vadiləri boyunca yayılan ağacları indiki Ermənistanın Qafan rayonunun Nerkin-Hand, Sav və Şixavuz kəndləri ərazisində qalıb. Beləliklə, ermənilər keçmiş sovet himayədarlarının əli ilə çinar meşəsinin də bir hissəsi işğal etdilər.

TƏHLİL+YANAŞMA







## Çinar meşələrini qorumaq üçün yaradılan qoruq

Görkəmli təbiətşünas alim, akademik Həsən Əliyevin təşəbbüsü ilə nadir təbiət abidəsi olan çinar meşəsini qorumaq məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin 1974-cü il 4 iyul tarixli qərarına əsasən Zəngilan rayonunun ərazisində 117 hektar sahəni əhatə edən Bəsitçay Dövlət Təbiət Qoruğu yaradılıb. Çox təəssüf ki, 1980-ci ildə çinar meşəsinin ümumi sahəsi 10 hektar azalaraq 107 hektar təşkil edib. Hesablamalara görə, Azərbaycanda çinar meşəsinin ümumi sahəsi 120 hektara yaxındır. Zəngilanın çinar meşəsi Avropada ən böyük, dünyada isə Kanadadan sonra ikinci yeri tutur. Hazırda Kanada dövlətinin bayrağının üzərindəki Şərq çinarı yarpağının təsviri uzun müddətdir ki, Kanadanın rəmzinə çevrilib. Bununla yanaşı, bir çox müəlliflər öz tədqiqatlarında hətta belə qənaətə gəlirlər ki, Zəngilanın çinar meşəsi - Şərq çinarı meşəsi dünyanın ən böyük meşə zolağıdır.

Tədqiqatçı, coğrafiyaşünas Oktay Ələkbərov da öz araşdırmalarına əsaslanaraq belə bir nəticəyə gəlir ki, Zəngilanın çinar meşəsi Yer kürəsinin ən böyük çinar meşəsidir və bu meşə massivi sahəsinin böyüklüyünə görə dünyada birincidir. Alimlərimizin qeydlərinə görə, Şərq çinarları tez böyüyən, susuzluğa davamlı və uzunömürlü ağaclar sırasına daxildir. Çinarlar 200-300 ilə qədər yaşaya bilir. Çinar ağacı müxtəlif məqsədlər üçün istifadə baxımından da olduqca dəyərli hesab edilir. Onun materiallarından tikinti materialı kimi, parket, mebel istehsalında, gəmiqayırmada və həmçinin dekorativ ağac kimi yaşıllaşdırmada istifadə edilir.

Mənbələrə əsasən Zəngilanın çinar meşəsi təkcə yerli mütəxəssislərin, coğrafiyaşünas alimlərin deyil, həm də dünya elminin görkəmli tədqiqatçılarının diqqətini cəlb edib. Tədqiqatçı, coğrafiyaşünas Oqtay Ələkbərov "Zəngilanın çinar meşəsi" yazısında bir sıra yerli və xarici alimlərin Zəngilan çinarları ilə yerində tanış olmaq üçün meşəyə gəldiklərini qeyd edir. Ekspedisiya nümayəndələri Zəngilan çinarları ilə yerində tanış olaraq, onların hündürlüyü, diametri, xüsusiyyətləri, görkəmi haqqında ətraflı məlumat toplayıb və öz yazılarında bunlardan bəhs ediblər. Alimlərin fikrincə, çinarlar çay boyunca yayılmağa meyllidirlər. Görünür, Azərbaycanın flora-faunasından asılı olaraq ölkəmizin ərazisində çinar ağacları daha çox təbii yolla cücərib, bitir, böyüyür. Bu baxımdan Zəngilan rayonunda formalaşan, nəhəng bir görkəm alan və gözəlliyə çevrilən çinar meşəsi Zəngəzur silsiləsinin şərq yamaclarından başlayır və axan Bəsitçay boyunca 12-15 kilometr ərazidə yayılıb.

## Vandalizmə uğramış çinarlar

Yağı düşmən 30 ildə işğal altında saxladığı torpaqlarımızda daşı daş üstündə qoymadığı kimi, təbii sərvətlərimizi də talayıb, öz ölkələrinə daşıyıb, həmçinin dünya bazarlarına çıxarıb, satıb-sovub, milyonlar qazanıb. Məlumata əsasən ümumi sahəsi 43 min hektar olan 6 xüsusi mühafizə olunan təbiət ərazisində 6 800 hektar meşə örtüyü tamamilə məhv edilib, biomüxtəlifliyə ciddi zərər vurulub. Bəsitçay Dövlət Təbiət Qoruğunun təxminən yarısına qədər hissəsində qədim Şərq çinarı ağacları kəsilərək məhv edilib.

Elə Zəngilanda yaradılacaq İşğal Muzeyi də düşmənin işğalı zamanı şəhərin və bölgənin məruz qaldığı vandallığın əyani surətdə nümayiş etdirilməsi məqsədi daşıyır. Zəngilan şəhərinin müəyyən hissəsinin dağıdılmış vəziyyətdə qalması və Ermənistanın işğalçılıq siyasətinin ümumi mənzərəsini əks etdirən açıq səma altında muzey kimi nümayiş etdirilməsi nəzərdə tutulur. İşğal Muzeyində ətraf mühitə vurulan ekoloji zərərlər, xüsusilə Zəngilan şəhərində ətraf mühitə, bioloji müxtəlifliyə, meşələrə, yeraltı və yerüstü təbii ehtiyatlara ciddi ziyan vurmaq məqsədilə törədilən ekoloji terror aktları barədə məlumatlar diqqətə çatdırılacaq. Muzeyin ekspozisiyası müxtəlif audio və vizual texnologiyalardan istifadə etməklə təşkil olunacaq. Muzey binasının şüşədən hazırlanacaq fasadının üzərindəki təsvirlər və naxışlar çinar yarpağına bənzəyəcək ki, bu da Zəngilan şəhərinin təbiətlə sıx əlaqəsini tərənnüm edəcək.

Düşmən işğal etdiyi yurdlarımızın altını üstünə çevirməklə sübut etdi ki, bu torpaqlar haqqındakı iddiaları tamamilə yanlışdır. Çünki özünün olan torpaqda heç kim bu vandalizmi törətməzdi. Əksinə meşələri qoruyar, tikililəri daha da abadlaşdırardı. Lakin erməni adlı vəhşi tayfa bəlkə də düşünmədən bütün dünyaya bəyan etdi ki, bəli, bu torpaqlar qonşuya məxsusdur, biz isə onları talan edirik.

## Zəngilanın çinarı özünə qaytarılır

Hər bir hadisənin sonu kimi, erməni vandalizminin də sonu gələcəkdi. Gəldi də. İndi biz qalib, onlar isə məğlub xaldır. Bu qələbə ilə Zəngilanın vüqarını qaytaran xalq, hazırda onun çinarını da özünə qaytarmaqla məşğuldur.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev bildirib ki, işğal illərində Zəngilanın ekosisteminə vurulan zərəri aradan qaldırmaq məqsədilə rayon ərazisində indiyədək 2 000 çinar ağacı və 1 000 kiloqrama yaxın palıd toxumu əkilib. Bəli, deməli, Zəngilanın vüqarı kimi, çinarı da özünə qaytarılır. Bütün bunlar isə sürətlə bərpa olunan Zəngilanın işıqlı sabahından xəbər verir.

Atalarımızın yaxşı bir məsəli var: su gələn arxa bir də gələr. Erməni adlı vandal düşünməsin ki, məhv etdikləri ilə bizi necə deyərlər, min arşın quyunun dibinə saldılar. Xeyr, düşmən erməni evləri yandıra, söküb öz ölkəsinə apara, ağacları kəsə, təbiəti məhv edə bilər. Lakin torpağa heç nə edə bilməz. Bütün bu sərvətləri isə yetirən-bitirən torpaqdır. Deməli, su gələn arxa bir də gələcək. Həmin torpağa əkilən minlərlə çinar sabah yenə Zəngilanın qiymətli sərvətinə çevriləcək. Palıd da həmçinin.



Yaxın gələcəkdə Zəngilanın məhv edilmiş təbiəti bərpa olunacaq. Yenə də xarici ölkələrdən çinar və palıdın sorağı ilə bu yurda gəlib, bu bənzərsiz ağaclar üzərində tədqiqatlar aparılacaq. Zəngilan çinarları yenə də dünyada ikinciliyini, Avropada isə birinciliyini qoruyub saxlayacaq. Bu çinarlar Zəngilanın füsunkar təbiətini zənginləşdirdikcə bölgəyə turist axını olacaq. Çünki bu yaşıllıqlar diyarında böyük turizm potensialı vardır. Gözəl meşələr, dağlar, bulaqlar, çayları ilə Zəngilan turizm üçün ən uyğun yerdir. Azadlığı ilə həm də abadlığına qovuşan rayonda insan əllərinin yaratdığı beynəlxalq hava limanı, dəmir yolu, avtomobil yolları, digər tikililər rayonun təbii gözəllikləri ilə harmoniya yaratdıqca Zəngilan böyük turizm məkanına çevriləcəkdir. Dövlətimizin başçısının dediyi kimi: "... Zəngilan rayonunun turizm imkanları dərindən təhlil edilməlidir, təxirəsalınmaz işlərə biz dərhal başlamalıyıq. Yeni otellər, istirahət zonaları yaradılmalı, kənd turizmi inkişaf etdirilməlidir. Bu, oraya qayıdacaq insanlar üçün də məşğulluq və gəlir mənbəyi olacaq".

Beləliklə, vüqarlı və çinarlı Zəngilanın parlaq gələcəyini bu gündən təsvir etmək olar.

***Mətanət MƏMMƏDOVA***

# Şəhidlər ölməz, vətən bölünməz!

## Qazaxda həkim şəhidimiz yad edildi

**Həkimlik idi murazım,**
**Şəhidlikmiş alın yazım,**
**Gözümdə qalmadı arzum,**
**Uyudum cənnət məkanda,**
**Ruhum sizlərin yanında**
**Ana ağla gülə - gülə,**
**Ata mənimlə fəxr elə,**
**Bacı, ölməmişəm hələ,**
**Gözlərəm cənnət məkanda,**
**Ruhum sizlərin yanında.**





12 avqust 2022-ci il tarixdə YAP Qazax rayon təşkilatı Aparatının işçiləri və partiya fəalları tərəfindən Azərbaycan Xüsusi Təyinatlılarının leytenantı olan hərbi tibb qulluqçusu şəhid Adil Qədir oğlu Əfəndiyevin doğum günündə xatirəsi ehtiramla yad edildi. Mərasim iştirakçıları əvvəlcə Qazax rayon Mərkəzi Xəstəxanasının binasının önündə şəhid həkimimizin xatirəsinə inşa olunmuş abidə-bulaq kompleksini ziyarət etdilər. Ziyarət zamanı çıxış edən YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev bildirdi ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Müzəffər Azərbaycan Ordusu 44 gün ərzində xalqımıza möhtəşəm qələbə sevinci bəxş etmişdir. Bu qələbə sevincini bizlərə yaşadan oğullarımızdan biri də Adil Əfəndiyevdir. O, şərəfli bir döyüş yolu keçmişdir. Döyüşlər zamanı neçə - neçə yaralı əsgər və zabitlərimizə tibbi xidmət göstərmişdir. O, Qubadlı istiqamətində gedən döyüşlərdə yaralı komandiri Anar Əliyevin həyatını xilas edərkən şəhidlik zirvəsinə ucalmışdır. Adil Əfəndiyev göstərdiyi igidliyə və şücaətə görə bir sıra orden və medallarla təltif olunub.

Onun göstərdiyi qəhrəmanlıq gələcək nəsillərə nümunədir. Qədirbilən xalqımız və dövlətimiz müqəddəs şəhidlərimizin əziz xatirəsini həmişə uca tutur, şəhid ailələrinə və qazilərə daim yüksək səviyyədə diqqət və qayğı göstərir.

Mərasim iştirakçıları daha sonra şəhid həkim Adil Əfəndiyevin uyuduğu Qazax şəhər qəbristanlığına gedərək onun qəbri önünə qərənfillər düzmüş, ruhuna dualar oxumuşlar.

## Ölkəmizdə gənclərə yüksək diqqət və qayğı göstərilir






Binəqədi rayonunda 12 Avqust Beynəlxalq Gənclər Günü münasibətilə tədbir keçirilib. Tədbirdə millət vəkili Səbinə Xasayeva, Bakı şəhəri Gənclər və İdman Baş İdarəsi rəisinin birinci müavini Aydın Yusifov, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, YAP Binəqədi rayon təşkilatının sədr müavini Sevinc Abdullayeva, Binəqədi rayon Gənclər və İdman İdarəsinin rəisi Namiq Tarverdiyev, Binəqədi Gənclər Evi sosial xidmət müəssisəsinin direktoru Günel Həsənova, Binəqədi rayon icra hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Amal Əsgərov, Vətən müharibəsi iştirakçısı qazi Ceyhun Sədrayev, Vətən müharibəsi qəhrəmanı şəhid polkovnik-leytenant Anar Şükürovun oğlu fəal gənc Ümid Şükürlü və fəal gənclər iştirak ediblər.Tədbir dövlət müstəqilliyimiz, torpaqlarımızın azadlığı uğrunda canlarından keçənlərin əziz xatirəsini 1 dəqiqəlik sükutla yad edildikdən və Dövlət himninin səslənməsindən sonra açıq elan olunub.

Tədbiri giriş sözü il əçan YAP Binəqədi rayon təşkilatının sədr müavini Sevinc Abdullayeva qonaqları salamlayaraq, gəncləri bayram günü münasibətilə təbrik edib. Bildirib ki, ölkəmizdə gənclərə yüksək diqqət və qayğı göstərilir, bütün sahələrdə gənclərin iştirakına təkan vermək məqsədilə geniş imkanlar yaradılıb.Daha sonra çıxış edən millət vəkili Səbinə Xasayeva avqustun 12-nin dünyada Beynəlxalq Gənclər Günü kimi qeyd olunduğunu bildirib və gənclərə uğurlar arzulayıb. Çıxış edən Bakı şəhəri Gənclər və İdman Baş İdarəsi rəisinin birinci müavini Aydın Yusifov Azərbaycan bir çox sahələrdə olduğu kimi, dövlət gənclər siyasətində də bir çox ölkələri, o cümlədən beynəlxalq ictimaiyyəti qabaqlamışdır. YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov çıxışında bildirib ki, xalqımızın Ulu Öndəri Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə uyğun davam etdirilməsi gənclərin hərtərəfli fəaliyyətinə geniş imkanlar yaradıb.

Sonda çıxış edən Vətən müharibəsi qəhrəmanı şəhid polkovnik-leytenant Anar Şükürovun oğlu fəal gənc Ümid Şükürlü və Vətən müharibəsi iştirakçısı Qazi Ceyhun Sədrayev bildiriblər ki, dövlətimizin şəhid ailələrinə, qazilərə və gənclərə göstərdiyi diqqət və qayğı danılmazdır.Binəqədi rayon Gənclər və İdman İdarəsinin rəisi Namiq Tarverdiyev və rayon icra hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Amal Əsgərov gənclərə uğurlar arzulayıb öz tövsiyələrini veriblər. Rayonun ictimai işlərində fəal iştirak edən bir qrup gənc Fəxri Fərman ilə təltif olunub. Tədbir bədii hissə ilə davam etdirilib.

*Zümrüd Bayramova*

## YAP Biləsuvar rayon təşkilatında tədbir keçirilib





Avqust ayının 12 - də Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatı rayonun Heydər Əliyev Mərkəzində ərazi partiya təşkilat nümayəndələrinin iştirakı ilə yığıncağ keçirdi. Tədbirdə YAP rayon təşkilatının sədri Kamil Qurbanlı, rayon təşkilatı aparatının əməkdaşları və ərazi partiya təşkilat sədrlərinin bir qrupu iştirak edirdi. Əvvəlcə tədbir iştirakçıları Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Tədbiri giriş sözü ilə açan YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı cari ilin ötən dövrü ərzində görülmüş işlər və həyata keçirilmiş tədbirlər barədə məlumat verdi. O, çıxışında ölkəmizin ictimai-siyasi həyatında baş verən hadisə və proseslərdən, partiyanın ötən dövr ərzində qazandığı uğurlardan və artan nüfuzundan bəhs etdi. Bildirdi ki, Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müstəqil Azərbaycan dövlətinin inkişafı və tərəqqisinə nail olmaqdan ötrü həyata keçirilən daxili və xarici siyasət kursu Yeni Azərbaycan Partiyasının Sədri, cənab Prezident İlham Əliyev tərəfindən böyük uğurla icra olunur. Yeni Azərbaycan Partiyasının dövlətçiliyimizin inkişafındakı xidmətlərindən danışan K.Qurbanlı VII Qurultaydan ötən dövr ərzində partiyanın yeni Proqram və Nizamnaməsinin tələblərinə uyğun olaraq yerli və ərazi partiya təşkilatlarının qarşısında qoyulan vəzifələrdən və bu vəzifələrin həyata keçirilməsində hər bir partiya üzvünün məsuliyyətinin artırılmasının vacibliyindən söz açdı. Qurultaydan ötən dövr ərzində Rayon təşkilatında həyata keçirilmiş tədbirlərin və görülmüş işlərin nəticəsi olaraq nailiyyətlər əldə olunmaqla yanaşı, nöqsan və çatışmazlıqlarında mövcud olduğunu bildirdi. K.Qurbanlı YAP rayon təşkilatının qarşısında duran vəzifələr və bu vəzifələrin icrasından ötrü həyat keçirilməli olan tədbirlər barədə danışdı. Səmimi diskussiya şəraitində keçən yığıncaq, iştirakçıların çıxışları ilə davam etdirildi.Tədbirin sonunda yığıncaq iştirakçılarına gələcək siyasi fəaliyyətlərində uğurlar arzu edildi.

*Rəfiqə*

# Boşanan cütlüklərdə mal-mülk necə bölünür?

*Yaşadığımız dövrlə valideynlərimizin yaşadığı dövr arasında ciddi fərqlər var. Keçmişdə münasibətlərin və evliliklərin sona çatması üçün müxtəlif səbəblər olduğu halda, bu gün tamamilə fərqli səbəblər ortaya çıxır. Bəs bu gün insanlar niyə boşanır?*



### Yanlış səbəblərə görə evlilik qərarı vermək

Bu gün boşanmaların ən çox yayılmış səbəblərindən biri insanın evlənməyə qərar verdiyi anla bağlıdır. Ailə qurmaq qərarı verərkən cəmiyyət, maddi zənginlik, sosial mühit və yaş kimi xarici faktorlardan çox təsirlənən insanlar bir müddət sonra düzgün münasibətdə olmadıqlarını anlayır və peşman olurlar. Təəssüf ki, bu peşmançılıq boşanmalara gətirib çıxarır.

### Fərdi fikrinin olmaması

Əgər fərd evləndikdən sonra özünü fərdi olaraq təyin edə bilmirsə, cütlük kimi sahib olduğu fikirlərdən kənara çıxa bilmirsə, öz maraqlarından uzaqlaşıb cütlük kimi yaşamağa davam edirsə, bu vəziyyət uzunmüddətli perspektivdə münasibətlərdə ciddi problemlər yaradır. İnsanın öz bəyənmələrini, istək və ehtiyaclarını açıq şəkildə ifadə edə bilmədiyi və qarşılaya bilmədiyi münasibətlər, təəssüf ki, boşanma qərarına doğru sürüklənir.

### Valideynlik vəzifələrinə qurban getmək

Evliliklərdə fərdlər üçün həyat yoldaşları prioritet olsa da, uşağın doğulması ilə bu prioritetlər aradan qalxır. Uşaq tərbiyəsi ilə çox məşğul olan cütlüklər bir-birlərinin qayğısına qalmağı və münasibətlərini inkişaf etdirməyi unudurlar. Uşaq böyüyüb evdən uzaqlaşanda ana və ata qayıdıb münasibətlərinə baxırlar. Bütün bu illər ərzində bir-birlərindən ayrı olduqlarını anlayır və münasibətləri və ortaq cəhətləri zəiflədiyi üçün boşanmağa qərar verirlər.

### Eyni baxış bucağına sahib olmamaq

Evlilikdən əvvəl cütlüklər bir-birlərini nə qədər uzun müddət tanısalar da, bəzən eyni evdə yaşamağa başlayanda hər şey dəyişə bilər. Məsələn, sizin üçün həftə sonu tətili evdə ayaqlarınızı yuxarı qaldıraraq oturmaq, onun üçün isə çölə çıxıb dostlarla görüşmək ola bilər. Həyat yoldaşlarından biri pul xərcləməyi sevərkən, digəri sadəcə xərcləmə həvəskarı ola bilər.



### Cinsi həyatın zəif olması

Ümumiyyətlə, kişilər cinsi yaxınlıq arzulayırlar. Hər ikisinin birlikdə yaşandığı cinsi əlaqə hər iki tərəfi də qane edəcək.

### Gözləntilərin qarşılanmaması

Hamımızın evliliyimiz və həyat yoldaşımızdan müəyyən gözləntiləri var. Bu gözləntilər qarşılanmadıqda biz gülmürük və tərəfdaşımızın mövcud problemi aradan qaldırmasını istəyirik. Buna görə də istər-istəməz şikayət etməyə, tənqid etməyə, hədələməyə, cəzalandırmağa və ya deyinməyə başlayırıq. Gözləntilərimiz çoxaldıqca və yerinə yetirilmədikcə davranışımız daha sərt olur. Davamlı olaraq bu gərginlik içində yaşayan cütlüklər münasibətdən yorularaq boşanma yolunu seçə bilərlər.

### Uyğun olmayan maddi perspektiv

Keçmişdə olduğu kimi, bu gün də evliliyi köhnədən səbəblər arasında maddi problemlər öz yerini tapır. Cütlərdən biri indini düşünərək yaşayır, digəri isə gələcəyi düşünərək qənaət etmək istəyirsə və hər iki tərəfin maliyyə perspektivi heç vaxt çevik deyilsə, bu, əlaqənin dağılmasına və ayrılığa səbəb ola bilər.

### Fərqliliyi sevmək

Evliliklərdə insanın öz şəxsi məkanının olması çox vacibdir. Ancaq demək olar ki, bütün maraqlarınızın fərqli olduğu və boş vaxtlarınızı tamamilə fərqli fəaliyyətlərə sərf etdiyiniz bir münasibət uzun sürməyəcək.

### Şəfqətli toxunuşların yox olması

Həyat yoldaşları arasında cinsi əlaqə qədər vacib olan şeylərdən biri də iki insanın bir-birinə şəfqətlə yaxınlaşması və toxunmasıdır. Məsələn, gün ərzində əl-ələ tutmaq, qucaqlaşmaq kimi şəfqətli davranışlar yoxdursa, münasibətdə soyuqluq yarana bilər.

Türkiyədə 2020-ci ildə boşanan cütlüklərin sayı 136 min 570 olduğu halda, 2021-ci ildə 174 min 85 olub. Boşanma üçün müraciətin ən çox yayılmış səbəbi cütlüklər arasında sevgi və yaxınlıq arzusudur. İştirakçıların 47%-i aralarındakı sevginin bitdiyini və bunun onların ailəsinin dağılmasına səbəb olduğunu bildirib. Boşanmalar nikah müddətinə görə təhlil edildikdə, 2021-ci ildə boşanmaların 33,6 faizi evliliyin ilk 5 ilində, 20,9 faizi isə nikahın 6-10 ilində baş verib.

2015-ci ildə Azərbaycanda 68 985 nikah qeydə alınıb. Azərbaycanda boşanma səbəbləri arasında əsas olan xasiyyətlərin uyğunsuzluğudur. Əvvəlki illərlə müqayisədə uşaq olmaması səbəbindən boşananların sayı isə azalıb.

2015-ci ildə Azərbaycanda xəyanətə görə boşanmaların sayı 413, sərxoşluqla bağlı 369, narkomaniya ilə bağlı 171, maddi duruma görə 302, xəstəliyə görə boşanmaların sayı üzrə 224 fakt qeydə alınıb. Boşanmalar daha çox 25-35 yaş arası insanlar arasında olur.

2021-ci ildə Azərbaycanda cari ilin yanvar-fevralında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 5672 nikah və 2417 boşanma halları qeydə alınmış və əhalinin hər 1000 nəfərinə nikahların sayı 3,5, boşanmaların sayı isə 1,5 olmuşdur.

Cari ilin yanvar-fevral aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 9606 nikah və 2505 boşanma halları qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 3,5-dən 5,9-a qədər artmış, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə qalmışdır.

Türkiyədə 2018-ci ildə boşanan cütlüklərin sayı bir əvvəlki ilə görə yüzdə 10,9 artaraq 142 min 448-ə yüksəlib. Məlumatlar göstərir ki, 2007-ci ildən sonra Türkiyədə boşanmaların sayı 10 il ərzində davamlı olaraq artıb. Bununla belə, Türkiyə Avropada boşanma nisbətinin ən aşağı olduğu ölkələrdən biridir. Avropa Statistika Təşkilatı Eurostatın Avropa ölkələrindəki boşanma nisbətləri illər üzrə göstərən məlumatları, Türkiyədə boşanma nisbətinin 2007-ci ildən 2017-ci ilə qədər yüzdə 52 artdığını ortaya qoyur.

Eurostatın məlumatına görə, 2017-ci ildə Türkiyədə hər 100 evlilikdən 22,5-i boşanma ilə nəticələnib. 2017-ci ildə Avropanın 13 ölkəsi arasında Rumıniyadan sonra ən az boşanan ölkə Türkiyə olub. Rumıniyada hər yüz nikahdan 21,8-i elə həmin ildə boşanma ilə nəticələnib.

Avropa ölkələrində ümumiyyətlə boşanma nisbətləri artsa da, 10 ildə azalma yaşayan ölkələr də olub. İsveçrə və Belçikada boşanma nisbətləri 10 il ərzində müvafiq olaraq 20 və 21 faiz azalıb.

Cənubi Avropa ölkələri yüksək boşanma nisbətləri ilə siyahıya başçılıq edir. 2017-ci ildə Portuqaliyada hər yüz nikahdan 64-ü sona çatdığı halda, İspaniyada bu rəqəm 57-yə yüksəlib.

ARAŞDIRMA

Ardı Səh. 12

# Boşanan cütlüklərdə mal-mülk necə bölünür?





**Əvvəli-Səh-11**

Türkiyədə Mövcud Mülki Məcəlləyə görə hüquqi mülkiyyət rejimi ”Alınmış əmlakda iştirak rejimi”dir. Yəni ailə qurarkən müqavilə bağlamağa ehtiyac yoxdur. Belə desək, həyat yoldaşları nikah şəhadətnaməsini imzaladıqdan dərhal sonra satın alınan bütün əmlak, bir qayda olaraq, boşanma zamanı yarıya bölünəcəkdir. Boşanma zamanı əmlak bölgüsündə əsas qayda nikah birliyi davam edərkən əldə edilən malın yarıya bölünməsidir. Lakin ər-arvadın şəxsi əmlakı bu çərçivədən çıxarılır. Şəxsi əmlak boşandıqdan sonra da şəxsdə qalmağa davam edir. Bəs, Azərbaycanda qadın nigah dövründə özünə hər hansı mülk alarsa, boşandıqdan sonra kişiyə bundan pay düşür? Bizdə bu barədə qanunvericilikdə vəziyyət necədir? SİA mövzu ilə bağlı hüquqşünas və vəkillərin fikirlərini öyrənib.

2012-ci ildə boşanmış Lalə Əliyeva: ”2012-ci ildə ailədaxili münaqişələr səbəbindən boşanmışam. Həyat yoldaşımla yaşadığımız ev qayınatamın adına olub. Qanunla faktiki olaraq evdən mənə pay düşsə də, imtina etdim. Yəni, qanunla orada mənə yaşamaq hüququ verilirdi.



**Deputat, hüquq müdafiəçisi Çingiz Qənizadə:** ”Ər və arvadda nikah dövründə əldə etdikləri bütün əmlaklara bərabər şəkildə pay hüquqları yaranır. Yəni, birgə nikah dövründə kişi və ya qadın mülk əldə edərsə, bu əmlak bərabər şəkildə bölünür.

Bəzi hallarda tərəflər hər hansı pay gözləməyə bilər. Qadına valideynləri və ya yaxın qohumları tərəfindən əmlak pay hədiyyə edilərsə, o bağışlanmalarda tərəflər arasında bərabər bölgü hüququ yaranmır. Birmənalı şəkildə qeyd edirəm ki, nikah dövründə ər və arvadın əldə etdikləri əmlak bölünür”.



**Vəkil Turan Abdullazadə:** ”Ailə məcəlləsinin 37.1 maddəsinə əsasən ər-arvad arasında müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, ümumi əmlakın bölünməsi zamanı bu əmlakdakı payları bərabər hesab olunur.

Eyni zamanda ailə məcəlləsinin 37.2 maddəsinə əsasən nikah müddətində ər və arvadın əldə etdiyi əmlak onların ümumi mülkiyyəti sayılır.

Lakin nikaha daxil olanadək onlara məxsus olan əmlak, habelə nikah dövründə hədiyyə şəklində və ya vərəsəlik əsasında digər əvəzsiz əqlər üzrə əldə etdikləri əmlak ər və arvadın hər birinin ayrıca mülkiyyətindədir. Yəni ər və arvadın hər birinin öz şəxsi əmlakı sayılır.

Zinət əşyaları istisna olmaqla fərdi istifadə olunan əşyalar ər və arvadın ümumi vəsaitindən əldə edilsə də, ər və arvaddan kimin istifadəsində olubsa ona məxsusdur. Yəni, qadın öz adına birgə nikah dövründə əvəzli əqd əsasında hər hansı bir əmlak alarsa, boşanan zaman həmin əmlak ər və arvad arasında bərabər şəkildə bölünəcək. Çünki birgə nigah dövründə alınmış sayılır. Əvəzli əqd əsasında alınıbsa xanıma vərəsəlik əsasında keçməyibsə, yəni xanımın öz vəsaitinə alınıbsa bu zaman o əmlakdakı paylar bərabər hesab edilir”.

**Hüquqşünas Fariz Əkbərov:** ”Ailə Məcəlləsinə görə kişi ilə qadın nikaha daxil olduqdan sonra ər-arvadın qarşılıqlı öhdəlikləri yaranır. Ər-arvadın birgə mülkiyyətinin rejimi onların əmlakının qanuni rejimi hesab olunur. Nikah müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, ər-arvadın əmlakının qanuni rejimi fəaliyyət göstərir. Ailə kəndli təsərrüfatı üzvlərinin birgə mülkiyyəti üzərində ər-arvadın istifadə, sahiblik və sərəncam hüquqları mülki qanunvericiliyinə uyğun olaraq müəyyən olunur.

Ümumi rejimdə nikah müddətində ərlə arvadın əldə etdikləri və qazandıqları əmlak və ondan gəlirlər onların ümumi birgə mülkiyyəti sayılır. Ər-arvadın birgə mülkiyyətinə onların hər birinin qanunla qadağan edilməyən fəaliyyət (əmək, sahibkarlıq və ya intellektual fəaliyyət) nəticəsində əldə etdikləri gəlirlər, aldıqları pensiya və müavinətlər, onların ümumi gəlirləri hesabına əldə edilən əşyalar, qiymətli kağızlar, kredit idarələrinə qoyulmuş paylar, əmanətlər və nikah dövründə ər-arvadın qazandığı hər hansı sair əmlak daxil ola bilər. Qeyd olunan məsələlər Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 225-ci və Ailə Məcəlləsinin 31- 37-ci maddələri ilə müəyyən edilir.

Nikaha girənədək ər-arvaddan hər birinə məxsus olmuş əmlak, habelə onlardan birinin nikah dövründə hədiyyə kimi və ya vərəsəlik qaydasında aldığı əmlak və fər-



di istifadədə olan əmlak (paltar, ayaqqabı, kitab) ümumi birgə mülkiyyət sayılmır.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 8.2-ci maddəsinə müvafiq olaraq, həmin Məcəllənin 36.9-cu maddəsində müəyyən edilmiş 3 illik iddia müddətinin axımı Azərbaycan Respublikası Mülki Məcəlləsinin 377.1-ci maddəsinə əsasən, ər-arvadın hər birinin ümumi əmlaka olan mülkiyyət hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu gündən hesablanır”.

***Ayşən Vəli***



# Elektron biznesə sıfırdan necə başlamaq olar?

***Hesablamalara görə, 2022-ci ilin sonunda onlayn alış-veriş edənlərin sayı 2,14 milyard olacaq - bu, dünya əhalisinin ümumi sayının 27,6%-i, hər dörddə birindən çoxdur və göstərici dinamik şəkildə artmaqda davam edir. 2022-ci ildə rəqəmsal alıcıların sayının 4,4% artacağı gözlənilir.***



Elektron ticarətin inkişafı nağdsız ödənişlərin artmasına kömək edir. Bu ilin birinci rübünün yekunlarına əsasən, nağdsız ödənişlərin həcmi 12,7 trilyon təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,2 dəfə çoxdur. Eyni zamanda, ümumi həcmin 82 faizi internet və mobil bankçılıq vasitəsilə aparılan nağdsız əməliyyatların payına düşür. Beynəlxalq ödəniş sistemləri kontekstində bütün nağdsız əməliyyatların 99,1%-i MasterCard və VISA International-ın payına düşür. Ümumilikdə, 2021-ci ildə ümumi məbləği 35,3 trilyon dollar olan 2,9 milyard nağdsız əməliyyat həyata keçirilib .

Onlayn alış-verişi seçməyin səbəbləri müxtəlifdir və məsələn, rahatlıq, aşağı qiymətlər və daha geniş çeşiddə məhsullar daxildir. Bundan əlavə, onlayn şirkətlər onlayn alış-veriş təcrübəsini şəxsi alış-veriş təcrübəsi ilə uyğunlaşdırmağa uğurla çalışırlar.

Əslində, e-ticarət təkcə şəbəkələrdən istifadə etməklə həyata keçirilən maliyyə və ya kommersiya əməliyyatları deyil, həm də əməliyyatlarla bağlı qlobal biznes proseslərinin zəncirləridir.

Bu gün e-ticarət malların onlayn xidmətlər və ya İnternet vasitəsilə elektron alışı və ya satışı, mobil ticarət, elektron pul köçürmələri, təchizat zəncirinin idarə edilməsi, İnternet marketinqi, onlayn əməliyyatların işlənməsi, elektron məlumat mübadiləsi, idarəetmə və avtomatlaşdırılmış məlumat toplama sistemləri və s. daxildir. İlk onlayn alış-veriş 1994-cü ildə amerikalı Phil Brandenberger tərəfindən edilib. O, Stinqin yeni albomu olan Ten Summoners' Tales saytdan sifariş edib və Masterkard ilə 12,48 dollar ödəmişdir. Bir az sonra Amazon və Alibaba bazara daxil olaraq onun qabaqcılları və inhisarçıları olublar.

Elektron ticarəti bir neçə şəkildə təsnif etmək olar:

fiziki mallar - qida, geyim, mebel, elektronika, kağız kitablar;

rəqəmsal mallar - musiqi, filmlər və seriallar, elektron kitablar, onlayn kurslar;

xidmətlər - fotoqrafiya, təmizlik, hərəkətdə köməklik və s daxildir.

### Bəs onlayn biznesə və ya ticarətə hardan və necə başlamaq olar?



**Satış təlimçisi Kamal Mahmudov** SİA-ya açıqlamasında elektron ticarətdə vacib məqamlara açıqlayıb.

Günümüzdə onlayn biznesə başlamaq artıq hər kəs üçün əlçatandır. Bu hər nə qədər asan səslənsə də bir o qədər də diqqət olunmalı bir mövzudur. Onlayn biznesə 0-dan necə başlamaq olar? Buna keçməmişdən öncə onu qeyd edim ki, bu daha çox hansı biznesə başlamaqdan asılıdır. Məsələn günümüzdə Dropshipping, Onlayn arbitraj, Affiliate marketing və s. kimi sahələr üzrə onlayn biznes açmaq mümkündür. Bu və bu kimi bizneslərə başlamamışdan öncə həmin sahə ilə bağlı özümüzü maarifləndirmək, bazar araşdırması etmək, həmin sahə ilə bağlı uğur qazanmış insanların inkişaf "qrafikini" izləmək mühimdir. Onlayn biznesdə uğur qazanmaq zaman, enerji və səbr tələb edir.

### Bu yönümdə ölkəmizdə vəziyyət necədir?



Ölkəmizdə onlayn biznes qurmağa maraq daha da artmaqdadır. Lakin insanlar tez bir zamanda qazanc əldə etməyə meyilli olduqları üçün biznes qurmaq yolunda keyfiyyət və biznes etikasını "qurban verirlər". Məhz bu səbəbdən alıcı kütlənin onlayn satış edənləri əksəriyyətinə qarşı münasibəti o qədər də yaxşı deyil. Bəli mən uzun müddətdir ki, satış sahəsində fəaliyyət göstərirəm. Satışa marağım isə təxminən 2011-2012ci illərdə Bakıdakı reklam agentliklərinin birincə çalışdığım dövrdə yarandı. Hazırda beynəlxalq və yerli satış təcrübəsinə sahibəm və özümü bu sahə üzrə kifayət qədər uğurlu hesab edirəm. Lakin başlanğıc illərdə bu o qədər də asan deyildi. İlkin zamanlarda satışlarımın alınmaması bu sahə ilə bağlı dərindən araşdırma etməyim üçün çox böyük stimul olmuşdu.



### Onlayn biznes qurmaq istəyən və yaxud freelance olmaq istəyən bir adam üçün ali təhsil, mükəmməl ingilis dil səviyyəsi önəmlidirmi?

Düşünürəm ki, bunun üçün ali təhsilin heç bir önəmi yoxdur. Onlayn biznes qurmaq istədiyimiz sahə ilə bağlı kurs götürməyimiz kifayət edər. Amma ingilis dili ilə bağlı eyni fikirdə deyiləm. Bəzən elə bir onlayn biznes ola bilər ki, bunun üçün ingilis dili biliyimizin olması vacib və ya bizim üçün üstünlük ola bilər. Ümumiyyətlə ingilis dili biliyi məlumat, informasiya əldə etmək baxımından hər daim bizim üçün üstünlükdür. İstənilən bir onlayn biznes üçün ingilis dilində kifayət qədər material tapmaq olar.

İstər pandemiya dövründə, istərsə də post pandemiya dövründə görürük ki, elektron ticarətin inkişafı zəruridir və inkişaf etməkdə davam edir. Əvvələr bir çox məsələlərdə ənənəvi formada hərəkət edirdiksə, indi artıq ənənəvi qaydadan çıxıb , onlayn ticarət formasında işlərimizi həll etməyə başladıq Ümumiyyətlə elektron ticarətin inkişaf elətdirməsi, nağdsiz ödənişlərin ərsəyə gəlməsindən sonra başladı və bu dünyada bir çox hallarda tətbiq olunur. Bu sözləri **Beynəlxalq idarəetmə sistemləri üzrə mütəxəssis, iqtisadçı, ekspert Asif İbrahimov** bildirib.

Sadəcə Azərbaycan post pandemiya dönəmində yeni mərhələyə qədəm qoyduğu üçün bizdə də artıq inkişaf etməyə başlayıb. Əvvələr insanlar mağazalara geyim əşyaları və s almaq üçün gedirdilər amma indi xaricdən və digər bir sıra satış portalları vasitəsilə sifarişlərini verib, qapılara qədər gətirirlər. Düşünürəm ki bu istiqamətdə Azərbaycan istehlakçısı bir çox məqamlara diqqət yetirməlidir. Təhlükəsiz alış-verişi təmin edən tələblərə qarşı diqqətli olmalıdır. Bu sahədə dünyada keçirilən praktikalar ölkəmizdə də, maariflənmə mövzusu kimi həyata keçirilməlidir.

**Sahibkar, bloger bir çox tətbiqlərin və portalların yaradıcısı Cəfər Cəfərov** isə Əsas maraq stoksuz e-ticarət bizneslərinədir deyə qeyd edir. Çünki çox az bir büdcə ilə bu işə hər kəs başlaya bilir.

Əvvəllər satış həyata keçirmək üçün vacib idi ki, bir mağazan və ya ofisin olsun, işçilərin olsun. İndi biz elə bir gözəl dövrdə yaşayırıq ki, Azərbaycanda oturaraq onlayn şəkildə dünyanın istənilən nöqtəsindən sifariş qəbul edə bilirik. Məhsul və ya xidmət sifarişi olmasından asılı olmayaraq öz kompyuterimizlə bu sifarişləri icra edə bilirik.

2015-ci ildən bu günə kimi öz onlayn biznes təcrübələrimi bloqum jafarnajafov.com üzərindən paylaşıram və hər il insanlarda bu sahəyə daha çox həvəsin artdığını hiss edirəm. İllər öncə bloqumdakı yazını oxuyub öz onlayn biznesini qurub və uğurlu olan insanlar bəzən küçədə mənlə rastlaşıb deyirlər ki, hal-hazırda belə bir uğurlu onlayn biznesə sahibəm və bu işə sizin bloqunuzdakı yazını oxuduqdan sonra başlamışam. Bir bilsəniz, necə xoşbəxt oluram onda.



Ümumiyyətlə uşaqlıqdan informasiya texnologiyalarına çox böyük həvəsim olub. İlk onlayn biznesimi də elə 17 yaşımda qurmuşam və uğurlu olub.

İllər sonra mobil tətbiqlərin trendi başladı və mən də ilk tətbiqlərim olan Hara Gedək və Baku City Guide yaratdım. Bu tətbiqlər də uğurlu olduqdan sonra qlobal bazar üçün tətbiqlər yaratmağa qərar verdim.

Amma hər yaratdığım layihə də uğurlu olmayıb, xeyli uğursuz layihələrim də olub və bunlara sadəcə bir dərs kimi baxmışam, məni həvəsdən salmasına imkan verməmişəm.

Bu sahədə ingilis dilini bilmək bəli mənə görə önəmlidir, lakin bu sahədə ali təhsilli olmağa gərək yoxdur. İnternetdən istənilən insan araşdırma etməklə onlayn biznesin bütün sirrlərini öyrənə bilərsiniz.

***Havar Şəfiyeva***

ARAŞDIRMA

# Dağıdıcı müxalifət siyasi dərnəklər təsiri bağışlayır

***Mövcud reallıqlar və faktlar ondan ibarətdir ki, Vətən müharibəsində Azərbaycanın erməni faşizmini məhv etməsi və 30 il işğal altında olmuş torpaqlarımızın azad edilməsi, bununla yanaşı ölkəmizin iqtisadi, sosial, hərbi və siyasi cəhətdən böyük uğurlara imza atması anti-Azərbaycan şəbəkəni ciddi narahat edir. Son vaxtlar ölkəmizdəki bəzi qaragüruh dəstə üzvlərinin populist bəyanatlarla çıxış edib, qanunsuz aksiyalar vasitəsi ilə qarşıdurmalar, iğtişaşlar yaratmağa cəhd etmələri, məhz anti-Azərbaycan şəbəkənin qurduğu və əlaltıları vasitəsi ilə həyata keçirməyə çalışdıqları tapşırıqların nəticəsidir.***



Sosial bazası olmayan dağıdıcı xislətli müxalifət yalnız anti-Azərbaycan şəbəkənin sifarişlərini yerinə yetirməklə özlərinin maddi təminatını həll etməyə çalışırlar. Lakin bütün hallarda cib funksiyasını yerinə yetirməkdən başqa bir şeyə yaramayan dağıdıcı qüvvələr xarici ağalarının önündə üzüqara qalmaqdadırlar. Çünki ictimai rəydə heç bir dəstəyə malik olmadıqlarından keçirdikləri aksiyalar iflasa uğrayır. Təbii ki, yenə aksiyalara və ya hər hansı piket keçirməyə cəhd edəcəklərsə, iflasa uğrayacaqları şübhəsizdir. Səbəb isə qeyd etdiyimiz kimi, cəmiyyətin dağıdıcı müxalifəti qəbul etməməsidir.

Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Azərbaycan müxalifətində lider defisiti var: "Bu bəla, bu virus müxalifəti uzun illər boyunca tərk etməyib və ona görə pərən-pərən olublar. Başlarına çıxanlar da düşmək istəməyib, tamamən despot rejim, şəxsiyyətə pərəstlik sistemi yaradıb. Özünə müxalif lider deyənlər qazanıb, yeyib-dağıdıb, quru və mənasız ideologiya ilə yaşayanlar isə bunların fitvası ilə ya cinayət törədib həbsə giriblər, ya da uyduqları, inandıqları yalanların, nağılların amansız məhkumiyyətinə düçar olublar. Hamısı da yarıtmaz siyasətin nəticəsində. Odur ki, bundan sonra da hər hansı bir möcüzə gözləməyə gəlməz. Azərbaycan müxalifəti yeni nəsil yetişdirməlidir. Ə.Kərimli ilə ən yaxşı perspektivdə quyunun dibinə qədər getmək olar. O da ən uzağı. Getmək istəyənlər buyursun. Qapı açıqdır. Kimsənin siyasi iradəsinə təsir etmək olmaz. Amma əmin olun ki, özünə hörmət edənlər enində-sonunda ayılıb, bu yoldan sapıb düz istiqamətə yönələcəklər. Ə.Kərimlinin olmadığı, diktə etmədiyi, insanları aldatmadığı istiqamətə".

**Sosial şəbəkə istifadəçilərindən: Əli Kərimlinin xəyanətlərini saymaqla bitməz**

Sosial şəbəkələri izlədiyim zaman istifadəçilərin, əsasən də, gənclərin müxalifətə qarşı sərt tənqidlərinin geniş yer aldığını oxumaq mümkündür. Onların bəzi fikirlərini olduğu kimi təqdim edirəm:

**Elshen Aliyev**

-Müxalifət düşərgəsinin satqın liderləri heç bir zaman uğur qazana bilməyəcəklər. Çünki bugünkü hakimiyyətin atdığı addımların hər biri ölkəmizin və xalqımızın mənafeyinə xidmət edir.

**Ismayil Ibrahimov**

-Əgər Əli Kərimli mütləq hakimiyyətə gəlmək istəyirsə, bunun bir hüquqi-siyasi yolunu tapıb xalqın dəstəyini qazanmaqla etməlidir.

**Lale Zeynalova**

-Müəyyən daxili və xarici qüvvələr Azərbaycan gənclərini düzgün yoldan çəkindirməyə, onları dövlətə qarşı yönəltməyə və öz çirkin məqsədləri üçün istifadə etməyə çalışırlar.

**Ayka**

-Əli Kərimlinin xəyanətlərini saymaqla bitməz. Bu gün o siyasi arenada hörməti olmayan və küncə sıxışdırılmış siyasətçidir. Onun özü də siyasi karyerasının sonunun gəldiyini anlayır.

**Ataş Əsədov**

-Əli Kərimli hec bir zaman lider falan olmayib. Bir neçə ay öncə müxalifət partiyalarını bir yerə yığıb, birləşdirmək istəyirdi, bəs nə oldu?

**Eldar Yahyayev**

-Azərbaycan hökuməti bu gün öz uğurlu siyasətini həyata kecirir. Bütun sahələrdə əldə edilmiş uğurlar millətimiz tərəfindən təqdir edilir. Xalqımız öz Prezidentinin hər zaman yanındadır.

**Ayşən Ələsgərova**

-Əli Kərimlinin xəmiri yalanla yoğrulub. Gec də olsa, axır ki, bildilər ki, Əli Kərimli yalançıdı. Öz mənafeyi üçün, cibinin pulunun bir az da artması üşün edir hər şeyi. Hələ azdı, Əli Kərimlinin üzü çox çıxacaq ortaya.

**Ataş Əsədov**

- Bu gün öz daxilində müxalifət olan biriləri kiçik bir toplumu idarə edə bilmirsə və problem yaranırsa, onda bu adam dövləti necə idarə edə biləcək, heç cür idarə edə bilməz.

**Ismayil Ibrahimov**

-Meydançа kənarında qaçaraq futbol oynadığını imitasiya edən 12-ci oyunçuya bənzəyib. Bu hərəkəti isə həmişə xalqda gülüş və istehza doğurub.

**Farid Saleh Oglu**

-Bunlar 90-cı illərdən bəri müxalifətin ön sıralarında dayanır. Hər birinin evi, maşını, xaricdə təhsil alan övladı, bir sözlə, əcnəbi daxilolmaları hesabına çox gözəl həyat qurublar. İndi isə müxalifət onların "yem" üçün bir-birini parçalamasının şahidi oluruq.

**Sabina Mammadova**

-Əli Kərimlinin fikirləri erməni lobbisinin, Azərbaycanı istəməyən dövlətlərin, ölkəmizə qarşı təzyiq göstərməyə çalışan beynəlxalq qurumların fikirləri ilə üst-üstə düşür. Yəni bunlar eyni mənbədən istiqamətləndirilir.

**Boşboğazlıq müxalifətin sonunu yaxınlaşdırır**

Bu gün Azərbaycan ictimaiyyəti dağıdıcı müxalif ünsürlərə, Ə.Kərimli, A.Hacılı, C.Həsənli, İ.Qəmbərov kimi Azərbaycanın inkişafına qarayaxmağa çalışan qüvvələrə birmənalı şəkildə yox deyir. Diqqət çəkən və ironiya ilə qarşılanan məsələlərdən biri də ondan ibarətdir ki, müxalifət başbilənləri uğursuzluğa düçar olsalar da, cəhdlərini davam etdirməkdədirlər. Bu da onu göstərir ki, onlar xarici qüvvələr qarşısında təxirəsalınmaz, ümumiyyətlə, ləğv edilməsi mümkün olmayan öhdəliklər götürüblər. Məhz bu kimi öhdəliklərə əsaslanaraq müxalifət sıralarına yeni ünsürlər cəlb etməyə çalışırlar. Müəyyən mənada demək olar ki, istəklərinə də nail olurlar. Yəni sıralarına özlərini bloger adlandıran və ya fars-molla rejiminin tulaları qismində çıxış edən hay-küyçülər qoşublar. Ancaq məsələ ondan ibarətdir ki, yeni iştirakçılarla köhnələr uzun yol gedə biləcəklərmi? Təbii ki, sualın cavabını zamanın ixtiyarına buraxaq. Bununla belə qeyd etmək olar ki, harada Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı varsa, orada parçalanmanın, qopmanın olması şübhəsizdir. Faktlara istinadən demək olar ki, son dövrlərdə müxalifət daxilində bir-birinin ardınca qalmaqallı hadisələr baş verir. Boşboğazlığı ilə seçilən AXCP sədri Ə.Kərimlinin şər və böhtanları milli maraqlara, insanların hüquqlarına zidd olduğu bir daha aydın görünür. Bütün bunlar müxalifətin dağıdıcı ünsürlərini xalqın gözündən bir qədər də salır. Nəticə isə, müxalifət üçün uğursuzluqla nəticələnəcəyi şübhəsizdir. Yəni tarixin artxivi müxalif partiyalarını və onların liderlərini gözləyir.

***İ.ƏLİYEV***

# EKSPERT: "Sarsaqlar olmasaydı, yaltaqlar acından ölərdi"



***"Varlının eybini görməzlikdən gəlmək, kasıbın eybini isə böyüdüb dağ boyda etmək mənfi xüsusiyyətdir. Çox adam bunu Azərbaycan xalqının mental dəyərləri ilə əlaqələndirir. Mən bu fikirlərlə razı deyiləm. Hesab edirəm ki, Azərbaycan xalqının böyük əksəriyyəti ləyaqətli insanlara qiymət verməyi bacarırlar.***

Ləyaqət isə var-dövlətlə, sərvətlə ölçülmür. Bu bir xarakter məsələsidir. Azərbaycanlılar ləyaqətli insanları sevir və onlara hörmət edirlər". Bu sözləri SİA-ya açıqlamasında Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə deyib.

Onun sözlərinə görə, təəssüf ki, mənfi tendensiyalar da var və biz hər gün ictimai həyatda bunu müşahidə edirik: "Doğrudan da Azərbaycanda varlı insanların qüsurlarına göz yummaq, hətta onların şit hərəkətlərinə gülmək, onların bədnam əməllərinə haqq qazandırmaq meyili var. Amma bu, kütləvi deyil. Məncə, bunu daha çox şəxsi maraqlarını güdən, savadına görə deyil, tanışlığa görə kimlərinsə himayəsi sayəsində karyera qu-ran adamlar edirlər".



Seymur Verdizadə sözlərinə belə davam edib: "Elə adamlar var ki, onlar öz potensialı ilə cəmiyyətdə layiq olduqları yeri tuta bilmirlər. Yəni, onların potensialı cəmiyyətdə sayılıb seçilən və söz sahibi olan adam olmağa imkan vermir. Buna görə də boğazdanyuxarı təriflərlə, marketinq dəyərlərini önə çəkməklə özlərini təsdiqləmək istəyirlər.

Yəni, varlının eybinə göz yummaq, şit hərəkətlərinə gülmək, kasıbı ələ salmaq və ona üstdən aşağı baxmaq kütləvi yanaşma deyil. Bu, öz potensialından yuxarı vəzifə tutan, olmayan potensialına baxmayaraq ciddi karyera quran adamların vərdişidir".

***Ayşən Vəli***

ANALIZ



*"Bakı mənim ruhumdur, onsuz yaşaya bilmərəm"*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Bakı Kafedralının kilsə xorunun solisti: Onun natiqlik sənətinə Azərbaycanın ümummilli lideri Heydər Əliyev heyran qalırdı

Bakılı Aleksandr Mixaylenko 50 ilə yaxındır ki, kilsə xorunda oxuyur. Əvvəlcə Azərbaycan Milli Konservatoriyasının məzunu Arxangel Mixail kilsəsinin xor kapellasının tərkibində çıxış edib, 2003-cü ildən isə Bakı Kafedralının Müqəddəs Jen Mironosits adına Yepiskoplar Xorunun üzvünə çevrilib. Bu yaxınlarda Aleksandr Dmitriyeviç 70 yaşını qeyd edib. "Moskva-Bakı" portalına öz yaradıcılıq yolunun necə başladığından danışan, imana münasibətini bölüşən Aleksandr Mixaylenko maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.





**- Siz Bakıda doğulub boya-başa çatmısınız. Valideynləriniz haqqında danışın, Bakı uşaqlığınız necə keçib?**

- Atam Böyük Vətən Müharibəsi başa çatandan dərhal sonra praktiki olaraq cəbhədən bura gəlib və iqkfvf qalmaq qərarına gəlib. Müharibə illərində anam Bakıda məxfi zavodda işləyirdi, orada əfsanəvi "Katyuşa"lar üçün mərmi istehsal edirdilər. 1942-ci ilin iyulunda rekord müddətdə Bakıda "Katyuşa"lar üçün raketlər istehsal edən Xalq Sursat Komissarlığının yeni zavodu yaradıldı. O, belə adlanırdı - Avadanlıq Zavodu. Reaktiv sistem üçün hissələr, gövdələr və avadanlıqlar müxtəlif profilli yerli sənaye müəssisələrində istehsal olunurdu, bu zavodlar müharibənin başlaması ilə öz işini hərbi şəkildə yenidən qurmuşdu.

Anamın fabriki indiki Tbilisi prospektində yerləşən mebel fabrikinin divarının arxasında yerləşirdi. Bakıda valideynlərim görüşüb ailə qurublar. Əvvəlcə hərbi şəhərcikdən bir qədər aralıda yaşayırdıq, atama mənzil veriləndən sonra Salyan kazarması ərazisinə köçdük. Mən hələ də bu evdə yaşayıram. Müqəddəs Mirra adına Qadınlar Katedrali ilə birbaşa üzbəüz. Bu bina 1909-cu ildə Azərbaycan xalqının görkəmli oğlu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin dəstəyi və dindarların şəxsi ianələri ilə tikilmişdir. Bu yerdə əvvəlcə taxta bina, sonra isə daşdan bina tikilmişdir.

Müharibədən sonra isə atamın işlədiyi topoqrafik anbar burada yerləşirdi. Kiçik olanda tez-tez işdə ona baş çəkirdim. Yoldaşlarım ilə bağçaya girdik, alma yığdıq və bunun üçün yerli gözətçidən "qulaqburması aldım". Mən bu kilsənin sərdabələrindəki hər çarxı, hər qəlibi xatırlayıram. Əvvəllər məbədin altında indiki İzmir parkına aparan yeraltı keçid var idi. Yadımdadır, bu kilsə bərpa olunmağa başlayanda dost olduğumuz Bakı və Azərbaycanın mərhum arxiyepiskopu Aleksandr məndən keçən əsrin ortalarında binanın necə göründüyünü soruşdu. Və yaddaşımdan çox şey bərpa etdim.

**- Necə oldu ki, Sovet zabitinin oğlu, kommunist bir şəxs kafedralın yepiskoplar xorunda solist oldu?**

- Atam ateist olub, ilahi heç nəyə inanmırdı. O vaxt Sovet İttifaqının əksər vətəndaşları belə düşünürdü. İllər sonra öyrəndim ki, ailəmizdə çoxlu keşiş var. Onların demək olar ki, hamısı 1937-ci ildə güllələnib. Yeri gəlmişkən, mən özüm də demək olar ki, ateisəm. Bəli, bəli, təsəvvür edin, ateistlər də kilsə xorunda oxuyurlar. Bizim üçün dini nəğmələr oxumaq bir işdir, hansı ki, bunu 100% bacarırıq. Mən dindarların hisslərinə hörmət edirəm və məncə, əsas məsələ budur.

Bəs mən məbəddə necə oldum? Məktəbdən dərhal sonra Azərbaycan SSR Ali Soveti adına Ali Ümumqoşun Komandanlıq Məktəbinə daxil oldum. Atamın yolu ilə getməyə qərar verdim. Amma ikinci kursda başa düşdüm ki, bu, mənim üçün deyil. Musiqi ilə məşğul olmaq istəyirdim, oxumaq istəyirdim. Asəf Zeynallı adına Bakı Məktəbinin vokal şöbəsi üçün imtahan verdim və uğurla daxil oldum. Bu sahədə əsl peşəkarlar var idi. Bir vaxtlar Üzeyir Hacıbəyovun özündən dərs alanlar.

Həyat məktəbinin nə olduğunu təsəvvür edə bilərsinizmi? Məktəbdə mənə gözəl müəllim Aleksandr Akimoviç Milovanov dərs deyirdi, o, bir dəfə dedi ki, operada belə bir bas ilə oxumaq lazımdır. Və məni Azərbaycan Opera və Balet Teatrına, gözəl dirijor Nazim Əliverdibəyovun dinləmələrinə apardı. O, qulaq asıb dedi: "Əla! Səni teatra hələlik "stajçı" kimi götürürük, sonra solist olacaqsan". Etiraz etməyə çalışdım: "Necə? Qayınanama söz vermişdim ki, opera teatrında solist olacağam".

Gənclik, ambisiyalar... Mən teatrda işləməkdən imtina etdim və 1976-cı ildə Bakı Arxangel Mixail kilsəsinin kilsə xorunda oxumağa dəvət aldım. Mən həmişə möhtəşəm kilsə musiqisini, kilsə ilahilərini bəyənmişəm. Və Müqəddəs Mirra adına Qadınlar Katedrali bərpa edildikdən sonra mən bu məbədin xorunda oxumağa başladım.

1979-cu ildə Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşam. Vokaldan cəmi bir imtahan verdim və dərhal qəbul olundum. Hələ o zaman Azərbaycanda keçirilən demək olar ki, bütün partiya qurultaylarının konsertlərində çıxış etməyə başladım. O vaxta qədər ailə qura bildim, iki qız böyütdüm. Mən həm də uşaqları necə böyütmək barədə düşünməli idim. Ona görə də bacardığım yerdə işləyirdim.

- Kilsədə sizin ateist olduğunuzu bilirdilər? Ruhanilər yeni xor üzvünə necə reaksiya verdilər?

- Mən bunu heç vaxt gizlətməmişəm. Məni yaxşı qarşıladılar, "inamsızlığıma" anlayışla yanaşdılar. Dinləmədə vaxtilə çarın yanında oxumuş əla xormeyster Vasili İllarionoviçin yanına getdim. Həmin vaxt onun yaşı 70-dən çox idi. Oxuduğumu dinlədikdən sonra dedi: "Bu gün belə basları çox az görürsən!". Beləliklə, kilsə xorunda oxumağa başladım. Komandamız mehriban və peşəkardır. Biz Moskvanın və Bütün Rusiyanın Patriarxları Aleksi və Kirill həzrətləri Bakıya səfərə gələndə onların qarşısında oxuduq.

Əsas iş yerim ölkənin müxtəlif səhnələrində çıxış etdiyim Azərbaycan Dövlət Kapellasının komandası olub. SSRİ xalq artisti, Moskva Konservatoriyasının direktoru, Moskva kapellasının rəhbəri Aleksandr Vasilyeviç Sveşnikov Bakıya teztez gəlirdi. O, bütün İttifaqı gəzdi, çoxlu sayda səs eşitdi və tez-tez təkrarladı ki, Bakıda mənim kimi güclü səslərə nadir hallarda rast gəlinir.

**- 50 ilə yaxındır ki, kilsə xorunda oxuyursunuz. İllər keçdikcə ateizminiz zəifləməyib?**

- Mənim dünyaya "ateist" baxışlarım Vladika Aleksandrla görüşəndən sonra sarsıldı. Bu yeganə keşişdir ki, din haqqında təsəvvürümü dəyişdirə bildi, onadək mən çox keşişlə rastlaşmışdım. Mən əsl mömin oldum deməyəcəyəm, yox... Amma mən Rəbbə inandım. Onunla uzun illər söhbət etdik, ölənə qədər dost olduq. Mən onun Allahla və kilsə ilə necə əlaqəsi olduğunu gördüm. Və bu münasibət məni bəzən heyrətləndirirdi. Vladika Alexander heç vaxt öz nöqteyi-nəzərini mənə tətbiq etməyib, məni inanmağa məcbur etməyib. O, mənim dünyagörüşümü pozmaq fikrində olmadığını və dinə münasibətimi dəyişməyə çalışmadığını söylədi. Bir dəfə mənə dedi: "Bəlkə nə vaxtsa Allahın hüzuruna gələcəksən, ya da gəlməyəcəksən. Bu sizin qərarınızdır. Əsas odur ki, yaxşı, layiqli insan olaraq qalın və ən yaxşı bildiyiniz işi et- oxu!

**- Vladika Aleksandr ünsiyyətdə necə idi?**

- Ağıllı, ləyaqətli, nəzakətli. Heç kimi qınamadı. Vladika mərhəmətli və səmimi bir insan idi. Və necə danışırdı! Onun natiqlik sənətinə Vladikanın yaxşı tanış olduğu Azərbaycanın ümummilli lideri Heydər Əliyev heyran qalırdı. Vladika Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə ilə dost olub və onu qardaş adlandırıb. Hamımız onun üçün çox darıxırıq... Son aylarda Vladika, əlbəttə ki, dünyadan getmək üzrə olduğunu başa düşdü. Və qarşıdan gələn gedişi ləyaqət və təvazökarlıqla qəbul etdi. Çaxnaşma və təlaş yox idi. Gündəlik dua, xidmət və iş. Vladika vəfat edəndə bütün Bakı onu dəfn etdi. Onunla vidalaşmağa müxtəlif inanclı insanlar gəlmişdi. Dəfn mərasiminə onun dostları, Belarus və Rusiyanın Azərbaycandakı keçmiş səfirləri Nikolay Paskeviç və Vasili İstratov da gəlmişdi. Vladikanın gedişi hər birimiz üçün şəxsi kədər idi. Sanki sevdiyin birini itirmisən...

**- Aleksandr Dmitriyeviç, siz özünüzü əsl bakılı adlandırırsınız. Bakı sizin üçün nədir?**

- Bu mənim ruhumdur. Mən Bakını sevirəm- sevimli şəhərim, onsuz yaşaya bilmərəm. Övladlarım Moskvada yaşayır və mən onlara tez-tez baş çəkirəm. Amma çox qalmıram. Vətən üçün darıxıram. Orada, Moskvada muğama qulaq asıram, "Bayatı-Şiraz", "Şikəstə", "Şur" xüsusilə xoşuma gəlir. Muğamın sehrli sədaları sanki mənə doğulub boya-başa çatdığım yeri xatırladır. Bakıda məni tanıyır və sevirlər. Və hansı millətdən olduğunuzun, hansı Tanrıya inandığınızın fərqi yoxdur. Biz hamımız eyni ölkənin vətəndaşlarıyıq və vətənimizi eyni dərəcədə sevirik. Deməli, mən Bakını heç vaxt tərk etməyəcəyəm. Valideynlərim burada dəfn olunub, vaxtım gələndə mən də bu şəhərdə dəfn ediləcəyəm. Hətta qəbiristanlıqda özümə yer hazırlamışam və şəxsən Arximandrit Aleksi mənim üçün dua oxuyacaq.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
13 avqust
2022-ci il

# İslamiada: Yunan-Roma güləşçimiz finalda!



*V İslam Həmrəyliyi Oyunlarında yunan-Roma güləşçimiz Ülvü Qənizadə uğurlu çıxışını davam etdirir. Belə ki, idmançımız final uğrunda mübarizədə qırğızıstanlı Bəy Qonurbayevə 9:0 hesabı ilə qalib gələrək həlledici mərhələyə vəsiqə qazanıb.*

Qadın güləşçimiz Elis Manolova isə B qrupundakı ikinci görüşündə qazaxıstanlı Yelena Şaliqinaya "tuşe" ilə qalib gəlib və qrup lideri kimi yarımfinala vəsiqə əldə edib.

# Ürəyin 3 ən QƏDDAR DÜŞMƏNİ



***Tibbi statistika göstərir ki, bütün dünyada ürək-damar sistemi xəstəlikləri ölümün əsas səbəbidir. Belə vəziyyətdə ürək-damar sistemi xəstəliklərinin profilaktikası ən vacib məsələlərdən biridir.***

Ürəyin sağlamlığını qorumaq üçün ilk növbədə onun əsas düşmənlərini tanımaq lazımdır. Bu düşmənlər bunlardır:

**1. Piylənmə**

Statistika göstərir ki, piylənmədən əziyyət çəkə insanda normal bədən çəkisi olan insanla müqayisədə infarkt və insultun riski 3-4 dəfə çoxdur.

Piylənmədən əziyyət çəkən insanın ürəyi həddindən artıq yüklənir ki, bu da nəticədə ürək xəstəliklərinin inkişafına səbəb olur.

**2. Sadə karbohidratlar**

Son elmi araşdırmalar göstərib ki, ürək və damarların əsas qənimi olan aterosklerozun səbəbi heç də yağlar deyil, sadə karbohidratlardır (qlükoza, fruktoza, saxaroza).

Qidalanmada şəkər və şirniyyatlardan sui-istifadə ürək xəstəliklərinə yol açır.

**3. Stress**

Stress zamanı qanda stress hormonlarının (kortizol, adrenalin) səviyyəsi qalxır. Bu orqanizmin təbii reaksiyasıdır ki, bu reaksiya insana özünü təhlükədən, düşmənlərdən və s.-dən qorumağa, xilas etməyə kömək edir.

Lakin xroniki stress zamanı qanda stress hormonlarının səviyyəsi daim yüksək olur ki, bu da orqanizmə və ilk növbədə ürək-damar sisteminə yalnız ziyan vurur.

**Saglamolun.Az**

# 1 milyondan çox istifadəçi "Nar"+dan yararlanır!

İstifadəçi rahatlığını təmin edən "Nar+" tətbiqinin yüklənmə sayı 1 milyonu ötüb. Hər gün on minlərlə abunəçinin sorğularına qısa zamanda cavab tapdığı, hesab üzərində lazım olan əməliyyatları saniyələr içində həll etdiyi tətbiq artıq 3 ildir ki, müştəri təcrübəsinin daha da yaxşılaşdırılmasına xidmət edir.

"Nar+" tətbiqi bir çox funksiyalarından əlavə, abunəçilər üçün rabitə xidmətlərinin şəffaflığını da təmin edir. Hər bir "Nar+" istifadəçisi müxtəlif abunə əməliyyatlarını rahatlıqla həyata keçirir və balansına tam nəzarət edir. Abunəçilər müxtəlif sorğuları ilə bağlı onlayn çat xidmətinə də müraciət edib suallarını ünvanlaya bilirlər. Tətbiqdən ən çox istifadə edənlər paytaxt Bakı ilə yanaşı Sumqayıt, Gəncə və Quba sakinləridir.

Müştəriyönümlü yanaşması ilə seçilən mobil operator "Nar+" tətbiqinin 1 milyon




yüklənməsi münasibətlə yay kampaniyasının simalarından olan Cəfər Nəcəfovun Instagram səhifəsində sosial media istifadəçiləri üçün müsabiqə elan edir. Belə ki, müsabiqə paylaşımının şərh bölməsində tətbiqdə ən çox köməyinizə çatan funksiyanı qeyd etməklə dəyərli hədiyyələrdən birini qazana bilərsiniz.

# Bu gün 41 dərəcə isti olacaq!

***Azərbaycanda avqustun 13-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək.***

Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 22-26°, gündüz 33-38° isti, Bakıda gecə 23-25°, gündüz 35-37° isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 35-40 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-26° gündüz 35-39°, bəzi yerlərdə 41° isti, dağlarda gecə 13-18°, gündüz 21-26° isti olacağı gözlənilir.

# Bir gündə yol qəzalarında 4 nəfər ölüb



***Ötən gün Azərbaycanda baş verən yol-nəqliyyat hadisələri nəticəsində ölənlərin sayı açıqlanıb. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən SİA-ya bildirilib ki, avqustun 11-də respublikanın avtomobil yollarında ölümlə nəticələnən 4 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 4 nəfər ölüb.***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3300**